AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**RAFİQ İSMAYIL OĞLU İSMAYILOV**

# VIII-X ƏSRLƏRDƏ MİSİRİN SİYASİ-İQTİSADİ VƏ SOSİAL DURUMU

5502.01 – Ümumi tarix

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2016**

*Dissertasiya işi Bakı Dövlət Universitetinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi məsləhətçi:**
AMEA-nın həqiqi üzvü,
tarix üzrə elmlər doktoru, professor **N.M.Vəlixanlı**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **R.Ə.Hüseynov**

tarix üzrə elmlər doktoru, professor **A.B. Baxşəliyev**

tarix üzrə elmlər doktoru, professor **Z.H.Bayramov**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası**

Müdafiə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının «27_»_02_ 2016-cı il tarixli iclasında saat ____$^{00}$-da keçiriləcəkdir

**Ünvan**: AZ-1148. Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür

Avtoreferat «____» _____________2016-ci ildə göndərilmişdir

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə elmlər doktoru, professor **S.Y.Süleymanova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə İslamın meydana gəlməsi, ərəb-müsəlman dövlətinin və sonralar bütün müsəlmanların imperiyası sayılan vahid Xilafətin qurulması, eləcə də ondan qopub ayrılmış müsəlman dövlətləri ilə bağlı problemlərin müqayisəli-tarixi müstəvidə mükəmməl tədqiqatına maraq yetərincə artmaqdadır. Doğrudur, islam və Xilafət, eləcə də orta çağ müsəlman dövlətləri haqqında xeyli sayda əsərlər yazılmış və bu gün də yazılmaqdadır. Onların elmi dəyərini, bəzilərinin isə ən yüksək səviyyəli tədqiqatlar olduğunu söyləməklə yanaşı, hamısı üçün ümumi olan bir cəhətə diqqəti cəlb etmək istərdik: yaranışından Avro-Afro-Asiyanın çox böyük hissəsini ehtiva edən sivil məkana yeni yaşam tərzi və dünyanı dərk etmək düşüncəsi gətirən islam, onun dini və dünyəvi prinsipləri zəminində müxtəlif dilli, dinli, irqli insanların bir araya gəlməsi və uzun müddət bir dövlət hüdudları daxilində yaşaması, onlardan hər birinin malik olduqları maddi və mədəni irsin qarşılıqlı qaynayıb-qarışması nəticəsində geniş bir islam sivilizasiyası coğrafiyasının bərqərar olması, nəinki fiziki bir güc kimi, həm də əqli-intellektual baxımdan dünyanın «***Müsəlman***» adlı ən yaradıcı, aparıcı və qabaqcıl insanının meydana gəlməsi kimi, - bu hal, ən azı, məhz islam sivilizasiyasının nailiyyətlərindən yararlanmaq zəminində Avropada elmin və texnikanın tərəqqisi, avropalı ***«Dirçəliş insanı»***nın üzə çıxması və bunun sonucu olaraq XV-XVI əsrlərdə «***Böyük coğrafi kəşflər***»in baş verməsi dövrünə qədər dəyişməz qalmışdır, - fenomenal və cahanşümül əhəmiyyətli məsələlərə sıradan bir hadisə və fakt kimi yanaşılmasıdır. Halbuki, sözügedən dövrdə Avro-Afro-Asiya məkanında yeni dünya düzəni məhz müsəlmanlar, müsəlman dünyasının içində və yanında yaşayan etnoslar tərəfindən qurulmuşdur. Bu işi ərəblər başlamış, türklər isə başa çatdırmışlar. Prosesin başlıca və həlledici fiqurları hər iki tərəfdən köçəri: bədəvi ərəb və yürük türk olmuşdur. Sözügedən problemin mahiyyətini tam anlamaq baxımından istər ümumxilafət, istərsə də onun tərkibinə daxil olan ayrı-ayrı bölgələr və ya ölkələr müstəvisində tərəfsiz tarixçi mövqeyindən və müqayisəli-tarixi tədqiqinə ciddi ehtiyac vardır. Məhz bu zəmində lokal islam sivilizasiyasının bəşəri sivilizasiyanın tərkib hissəsi kimi, ölkələrin və etnosların timsalında isə onların islam sivilizasiyasında özünəməxsus yeri və rolu haqqında doğru və ədalətli nəticələrə gəlmək olardı. Ən başlıcası isə avro-mərkəzçi yanaşmanın Şərq tarixi üçün uğursuz məqamları üzə çıxar, bir sıra tarixi həqiqətlərə aydınlıq gətirilə bilərdi.

**Tədqiqatın xronoloji və coğrafi çərçivəsi**. Bizim də Xilafətin bir üzvi parçası olan Misir tarixinə müraciət etməyimiz deyilən məqamlardan qaynaqlanmışdır. Tədqiqatımızın xronoloji hüdudları Abbasilər xilafəti (750-1258) dövrünün müəyyən mərhələsinə – VIII-X əsrlərə – təsadüf edir. Bu da o səbəbdəndir ki, həmin tarixi mərhələnin sonunda Xilafətin siyasi süqutu baş vermiş və Misir nəinki mərkəzi hakimiyyətdən, ümumiyyətlə

Abbasilərin hakimiyyətindən birdəfəlik ayrılmış və müstəqil inkişaf yoluna qədəm qoymuşdur.

**Problemin araşdırılma dərəcəsi**. Tədqiq etdiyimiz problemlərin kompleks halda və bəlli bir zaman sürəcində araşdırılması haqqında məxsusi bir əsər yazılmamışdır. Bununla yanaşı istifadə etdiyimiz, məzmun və nəticələrindən müəyyən mənada yararlandığımız ədəbiyyat vardır və onlar daha çox misirli müəlliflər tərəfindən yazılmışdır. Bu baxımdan qeyd etmək lazımdır ki, orta çağ Misir tarixinin bir sıra problemlərinin araşdırılmasında daha çox fəaliyyət göstərən Səyyidə İsmail Kaşif olmuşdur. O, «Mısr fi ’asr əl-İxşidiyyin – Misir İxşidilər dövründə»[1], «Mısr fi ’asr əl-vilat – Misir valilər dövründə»[2], «Mısr fi fəcr əl-islam – Misir islamın başlanğıcında»[3] adlı monoqrafiyalarla yanaşı Həsən Əhməd Mahmudla birlikdə «Mısr fi ’asr ət-Tuluniyyin va-l-İxşidiyyin – Misir Tulunilər və İxşidilər zamanında» adlı[4] kitabın müəllifidir.

Həmin qəbildən olan əsərlər içərisində Z.M.Həsənin tədqiqatını da xüsusi qeyd etmək lazımdır.[5] Əli İbrahim Həsənin «Mısr fi ’usur əl-vusta – Misir orta əsrlər dövründə» adlı[6] əsəri də ehtiva etdiyi problemlərin çoxluğuna görə olduqca sanballıdır. Eyni sözləri müəyyən mənada Cəmaləddin Şəyyalın «Tarix Mısr əl-islamiyyə – İslam Misiri tarixi» adlı[7] əsəri haqqında da söyləmək olar.

Tədqiqat işinin yazılmasında mövzumuzun ehtiva etdiyi Abbasilər xilafəti dövrü tarixinə aid əsərlərə də müraciət edilmişdir. Bunlardan Əhməd Əmin[8] və Həsən İbrahim Həsənin[9] çox cildli fundamental tədqiqatlarını göstərmək olar.

Tədqiqat işimizin hazırlanmasında biz müxtəlif şərqşünaslıq mərkəzlərində və müxtəlif dillərdə yazılmış tarixi ədəbiyyatdan da yararlanmışıq.

---

1 كاشف سيدة اسماعيل. مصر في عصرالاخشيديين ، القاهرة: ١٩٨٩، مطابع الاهرام، 354 ص, Qeyd: Kitabın II və III nəşrləri 1975-ci və 1989-cu illərdə olmuşdur.

2 كاشف سيده اسماعيل. مصر في عصر الولاة. القاهرة: ١٩٨٨، مطبعة العمرىة، 218 ص

3 كاشف سيدة اسماعيل. مصر في فجر الإسلام من الفتح العربي إلى قيام الدولة الطولونية. القاهرة: ١٩٩٤، مطبعة العمرىة، 304 ص

4 كاشف سيدة اسماعيل و حسن احمد محمود. مصر في عهد الطولونيين و الاخشيديين. القاهرة: ١٩٦٢، مطبعة الانجلو المصرىة، 306 ص

5 Zaku Muhammad Hassan. Les Tulunides, Paris, 1933.

6 على ابراهيم حسن. مصر في العصور الوسطى من الفتح العربي الى الفتح العثماني. القاهرة: ١٩٥٤، دار المعارف، 428 ص

7 شيّال جمال الدين. تاريخ مصر الإسلامية من الفتح العربي إلى نهاية العصر الفاطمي، الجزءان الأول والثاني. القاهرة: ١٩٦٨، مطبعة العامرة. 1998 ج 1- 326 ص ج 2 - 330 ص

8 امىن احمد. ظهر الاسلام. القاهرة: 1956; امىن احمد. فجر الاسلام. القاهرة: مكتبظ التهصة المصوىة، 1956، 332 ص
امىن احمد. ;مكتبة التهصة المصوىة، 1955- 1956، ج 1- 342 ص، ج 2- 286 ص، ج3- 325 ص، ج4- 325 ص
ضحى الاسلام. القاهرة: مطبعة لخمة التألىف، 1952، ج 1- 422 ص، ج2- 363 ص، ج 3- 394 ص

9 حسن ابراهيم حسن. تاريخ الاسلام السياسى والدينى والثقافى والاجتماعى. الجزء الثالث، القاهرة: ١٩٦١، المطبعة السادسة، C.3, 599 ص

Bu baxımdan, ilk öncə, Qərbi Avropa tədqiqatçılarının bizə bəlli olan əsərlərinə münasibətimizi bildirmək istərdik. Onu da əlavə edək ki, bu əsərlərin bəzilərində – az sayda olsa da – bilavasitə Misir, böyük çoxluğunda isə Xilafət tarixinin müxtəlif problemləri araşdırılır. Məhz orta çağ Misir tarixinin tədqiqinə əmək sərf edən müəlliflər sırasında isə S.Len-Pul daha çox fərqlənir. Tədqiqatımızın ehtiva etdiyi xronoloji hüdudlar çərçivəsində ölkədə baş verən siyasi hadisələr[1], mövcud sosial problemlər[2], Qahirə şəhərinin tarixi[3] və b.məsələlər[4] onun müvafiq əsərlərində öz elmi tədqiqini tapmışdır. V.Byörkman[5], A.Bohlig[6], G.Vaterfild[7], G.Veil[8], F.Vustenfeld[9] və digərləri də Misirin valiləri, ölkənin tarixi üçün səciyyəvi olan siyasi və iqtisadi xarakterli ümumi hallar və təzahürləri üzə çıxaran araşdırmaların, eləcə də orta əsr qaynaqlarında Misir haqqında verilən məlumatların elmi-tənqidi təhlilini ehtiva edən əsərlərin müəllifləridir.

Bu əsərlər sırasında ərəb-islam tarixinin böyük bilicisi və tədqiqatçısı A.Müllerin «İslam tarixi»[10] lap başda gəlir, – söyləsək, inanıram ki, heç də yanılmarıq. Əsərdə o dövrə qədər elmin nail olduğu nəticələrin həqiqi mənzərəsini oxucunun təsəvvürə gətirməsi üçün mümkün olan hər bir şey edilmişdir.

Tədqiqatımızla bağlı bu və ya digər konkret məsələlərin araşdırılmasında istifadə etdiyimiz əsərlərə gəlincə, onlardan K.E.Bosvort[11], N.A.Gibb[12], H.Kennedi[13], J.L.Espozito[14], J.Wellhauzen[15], D.Surdel[16], H.Tollner[1] və b.

---

[1] Stanley Lane Poole. A History of Egypt in the Middle Ages. London, 1901

[2] Yenə onun. Social life in Egypt. London, 1904

[3] Yenə onun. Cairo. London, 1898

[4] Yenə onun. Muhammeden dinasties. Paris, 1925

[5] Walter Byorkman. Beitrage zur Geschichte der Statskanzlei im islamischen Agypten. Hamburg, 1928

[6] Alexander Bohlig.Agypten und Bizanz bis zur arabischen Leit. Munchen, 1953

[7] Gordon Waterfild.Egypt. London, 1967

[8] Gustav Weil.Geschichte des Abbaside chahifats in Egyptian, vol. I-II. Ştuttgart, 1860-1862

[9] Ferdinand Wustenfeld. Die Stathalter von Agypten zur Leit der chalifen. IV abtheilung. Gottingen, 1875; Die Geographie und verwalting von Agypten nach dem Arabischen des Abul-'Abbas Ahmed ben Ali el-Calcaschandi. Gottingen, 1879

[10] Август Мюллер. История ислама (с основная до новейших времен) Перевод с немецкого, под редакции Н.А.Медникова СПб, 1895-1986; Москва, 2004.

[11] C.E.Boswort. Sistan under the Arabs from the Islamic Conquest to the Rise Saffarides (651-864). Rome, 1968; Нашествие варваров в Мусульманском мире, - Мусульманский мир (950-1150). Москва, Наука, 1971

[12] N.A.R.Gibb. The Arab Conquests in Central Asia. London, 1922

[13] N.Kennedy. The Prophet and the Age of the Caliphate. London –New York, 1986

[14] J.L.Esposito. The Oxford History Islam. Oxford, 1999

[15] J.Wellhausen. The Arabs Kingdom and its fall. London, 1973

[16] D.Seurdul. Histore des Arabs. Paris, 1985

kimi tarixçilərin əsərlərini qeyd etmək lazımdır.

Onlardan fərqli olaraq, A.Metsin «Müsəlman intibahı» adlı[2] əsəri konkret bir əsrə – X əsrə həsr olunsa da, orada tarixi və elmi-tənqidi şərhi verilən məsələlər çox çeşidlidir.

Abbasilər Xilafətində etnoslararası inteqrasiya prosesinin daha güclənməsi və bu zəmində dövlət həyatının müxtəlif sahələrində və əyalətlərdə, o cümlədən Misirdə türk etnosunun oynadığı rol və onun doğurduğu nəticələri araşdırmaq baxımından türk tarixçilərinin də tədqiqatlarında müəyyən məlumatlar vardır. Bu sahədə daha çox əməyi keçən müəllif H.D.Yıldızdır. Onun «İslamiyyət və türklər» adlı[3] əsərində türklərin islama gəlişinin genişlənməsindən tutmuş, onların yeni cəmiyyətə inteqrasiyası kimi bir sıra məqamlar şərh olunmuşdur.

Oxşar proseslərin bölgələrdə necə cərəyan etməsinin tədqiqi baxımından Z.Kitabçının monoqrafiyası[4] və məqalələri də maraq doğurur.

Digər müəlliflərdən ilk ərəb tarixçilərinin türklər haqqında məlumatlarını türkcəyə çevirən və onlara qiymətli şərhlər yazan R.Şeşen[5], ümumi türk tarixinə aid fundamental əsərində türklərin islam dünyasına gəlişini araşdıran Z.V.Toğan[6], Abbasilərin hakimiyyətə gəlməsində türklərin rolu və iştirakını işıqlandıran Ş.Günaltay[7] və digərlərinin adlarını çəkə bilərik.

Rus-sovet şərqşünaslığında islam, Ərəb xilafəti, ərəb, fars və türk xalqları tarixi və ədəbiyyatı haqqında iri həcmli, çox planlı və geniş əhatəli əsərlər yazılması təcrübəsinin əsası akad. A.E.Krımski tərəfindən qoyulmuşdur, - söyləsək, düşünürəm ki, səhv etməzdik. A.E.Krımskinin «Ərəblər, onların Xilafəti və sonrakı durumunun tarixi və qısa ərəb ədəbiyyatı oçerki» adlı[8] əsəri müsəlman Misiri haqqında gərəkli məlumatlar və dərin elmi-tənqidi mülahizələrlə zəngindir. Müəllifin «Müsəlmanlığın tarixi» adlı[9] əsəri də kifayət qədər maraqlıdır.

---

[1] H.Toolner. Die turkischen Garden am Kalifenhof von Samarra. Bonn, 1971

[2] A.Mez. Die Renaissance des Islams. Heidelberg, 1922. Əsər ruscaya tərcümə olunmuşdur və biz həmin variantdan istifadə etmişik: Адам Мец. Мусульманский Ренессанс. изд-во 2-е. Перевод с немецкого, предисловие, библиография и указатель Д.Е.Бертельса. Москва, Наука. 1973

[3] N.D.Yıldız. İslamiyyet ve türkler. İstanbul, 1976

[4] Z.Kitabçı. Orta Asiyada islamiyyetin yayılışı və türkler. Talas nezeriyyesinin çöküşü. Konya, 1998; Orta Doğuda türk askeri varlığının ilk zuhuru. Türk Dünyası Araştırmaları vakfi. İstanbul, 1987

[5] R.Şeşen. Hilafet ordusunun mankibları ve türklerin fazilatları. Ankara, 1967

[6] Z.V.Toğan. Ümumi türk tarihinə giriş, c.1, İstanbul, 1970

[7] Ş.Günaltay. Abbas oğulları imperatorluğunun kuruluş ve yükselişinde türklerin rolu, - Türk tarihi kurumu belleteni, №6, s.177-205, Ankara, 1942

[8] А.Е.Крымский. История арабов, их халифат, их дальнейшие судьбы и краткий очерк арабской литературы. М., 1903

[9] Yenə onun. История мусульманства. М., 1912

A.A.Vasilyevin Xilafət-Bizans münasibətlərinin yüz illik tarixini-, IX əsrin ikinci yarısı-X əsrin birinci yarısı, -ehtiva edən əsəri «Bizans və ərəblər» adlanır[1] və orada müəllif bir bölgə kimi Misirdən də bəhs edir. Orta çağ Müsəlman Şərqi həyatının hər hansı cəhətini araşdıranların hökmən müraciət etməli olduqları mənbələrin elmi-tənqidi şərhi İ.Y.Kraçkovskinin çoxcildli külliyyatının dördüncü cildinin[2] məzmununu təşkil edir. Orta əsrlər müsəlman dünyası və sivilizasiyası haqqında bu gün də dəyərini itirməyən ən orijinal əsərlər V.V.Bartolda[3] məxsusdur. Onun əsərlərinin altıncı cildi konkret olaraq islam və ərəb xilafətinə dair tədqiqatlardan ibarətdir.

B.N.Zaxoder[4], Y.A.Belyayev[5], O.Q.Bolşakov[6] və İ.M.Filştinski[7] kimi tədqiqatçılara gəlincə, onların əsərləri əsasən ərəblər və Ərəb Xilafəti haqqında olsa da, bəzən birbaşa, daha çox isə dolayısı ilə Abbasilər Misiri ilə bağlı məqamlardan da xali deyildir.

Yuxarıda sözügedən rus-sovet şərqşünaslarından fərqli olaraq L.A.Semyonovanın tədqiqatları orta çağ Misiri haqqındadır[8]. Doğrudur, onlar daha çox bizim tədqiqatımızın xronologiyasından sonrakı dövrlərə aiddir, ancaq müəyyən məqamlara aydınlıq gətirmək baxımından istifadə üçün əhəmiyyətlidir.

Azərbaycan şərqşünaslıq elmində də istər islam və Xilafət, istərsə də islam dünyasının ayrı-ayrı bölgələrinin tarixi və problemlərinə dair tədqiqatlar aparılmış, sanballı əsərlər yazılmışdır. Bu sahədə görkəmli tarixçimiz Z.M.Bünyadovun danılmaz xidmətləri xüsusi qeyd olunmalıdır. Doğrudur, onun iri həcmli tədqiqatları birbaşa ərəblər və ya Xilafət haqqında deyildir, bölgələrlə bağlıdır. Buna ən parlaq misal kimi alimin «Azərbaycan VII-IX əsrlərdə» əsərini[9] göstərmək olar. Ümumilikdə isə bu əsəri Xilafət tarixindən kənarda təsəvvür etmək olmaz, başqa sözlə desək, onun bir parçasıdır. Eyni zamanda, əsər Xilafətin ayrılıqda götürülmüş bir bölgəsinin tarixini və problemlərini öyrənmək təcrübəsi və nümunəsidir. Z.M.Bünyadovun Xila-

---

[1] А.А.Васильев. Политические отношения Византии и арабов за время македонской династии (357-959 гг). СПб., 1902
[2] И.Ю.Крачковский. Избранные сочинения. IV том, М.-Л., 1957
[3] В.В.Бартольд. Сочинения. Т. VI. М., Наука, 1977
[4] Б.Н.Заходер. История восточного средневековья. Москва, Изд-во Восточный литературы, 1944
[5] Е.А.Беляев. Арабы, ислам и Арабский халифат в ранее средневековье. Москва, - Изд-во Восточной литературы, 1965.
[6] О.Г.Большаков. Средневековый город Ближнего Востока (VII-середина –XIII в). Москва, Изд-во восточной литературы, 1984.
[7] И.М.Фильштинский. История арабской литературы. Т.I, Москва, Наука, 1985; yenə onun. История арабов и Халифата. Москва, 2001
[8] Л.А.Семенова. Салах ад-Дин и мамлюки в Египте. М., 1966; Из истории Фатимидского Египта. М., 1974
[9] Z.M.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1989.

fət tarixinə dair yazdığı «Abbasilər xilafətində türk ağalığının başlanması (830-870-ci illər)» adlı[1] məqaləsi ilə təkcə Azərbaycanda deyil, keçmiş sovet məkanında ərəbşünaslıq sahəsində yeni bir elmi tədqiqat istiqamətinin əsası qoyuldu və inkişafına start verildi. Qısa bir zaman kəsimində maraqlı əsərlər yazıldı. Bu baxımdan ilk olaraq çağımızın tanınmış tarixçisi N.Vəlixanlının tədqiqatlarını qeyd etmək istərdik. Onun «IX-XII əsr ərəb coğrafiyaşünasları və səyyahları Azərbaycan haqqında» adlı[2] monoqrafiyası qaynaqlara elmi-tənqidi yanaşma tərzi, «Ərəb Xilafəti və Azərbaycan»[3] adlı əsəri isə ümumxilafət tarixi konteksində bölgənin yeri və rolunu öyrənmək təcrübəsi baxımından tarixçi üçün bir örnəkdir.

Bunlarla yanaşı, Azərbaycanın şərqşünas tarixçilərindən bəzilərinin tədqiqatları birbaşa bizim tədqiqatımızın ehtiva etdiyi məkan, problemlər və tarixi dövrlə bağlıdır. Belə ki, Ə.Q.Əliyevin-Elçibəyin «Tolun oğulları dövləti»[4] və R.İ.İsmayılovun «İxşidilər dövləti» adlı[5] monoqrafiyaları məhz Abbasilər Misiri tarixinin bir sıra məqamlarını araşdırmaq sahəsində ilk elmi cəhdlər kimi maraq doğurur.

F.M. Əsədov «Ərəb mənbələri erkən orta çağda türklər haqqında» adlı[6] monoqrafiyasında ərəblərin türklər barəsində ilkin təsəvvürləri, Abbasilər dövründə türk hərbi birliklərinin təşkili, onların fəaliyyəti və türklərə dair təsəvvürlərin təkamülü kimi məsələlərə aydınlıq gətirmişdir.

N.Ç.Axundova isə Abbasilər xilafətinin dövlət idarəetmə sistemində türklərin rolunu məxsusi olaraq araşdırmış və bu sahədə bir sıra məqamlara verdiyi şərhləri ehtiva edən sanballı bir monoqrafiya[7] hazırlamışdır.

Sözügedən tədqiqatlarla yanaşı E.R.Ağayevanın[8] Əzraqilər təriqəti, E.Y.Əlizadənin[9] Zəncilər üsyanı, C.Z.Bünyadovun[10] Qərmətilər hərəkatı və N.Bayramovanın[11] xəlifə ən-Nasir dövrü haqqında, eləcə də Y.Gözəlo-

---

[1] З.М.Буниятов. Начало господства тюрок в Халифате Аббасидов (837-870 гг). Известия АН Аз. ССР (серия история, философия и права), №1, с.51-58. Баку. 1969

[2] N.M.Vəlixanlı. IX-XIII əsr ərəb coğrafiyaşünasları və səyyahlar Azərbaycan haqqında. Bakı, 1974

[3] N.M.Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993

[4] Ebülfez Elçibey. Tolunoğulları devleti. İstanbul, 1997

[5] R.İ.İsmayılov. İxşidilər dövləti. Bakı, 2007

[6] Ф.М.Асадов. Арабские источники о тюрках в ранее средневековье. Баку, 1993

[7] Наргиз Ахундова. Тюрки в системе государственного управления Арабского Халифата (VIII-сер. – X вв.). Баку, -Элм, 2004

[8] Э.Р.Агаева. Секта азракитов. Автореферат кандидатской диссертации. Баку, -Элм, 1971

[9] Э.Э.Ализаде. Восстание зинджей в Аббасиском Халифате (868-883). Баку, Элм, 1985

[10] Дж. З.Бунятов. Восстание карматов. Баку, -Элм, 1988

[11] N.Bayramlı. Abbasilər xilafəti xəlifə ən-Nasir dövründə. Bakı, 2002

vanın[1] mövzu ilə bağlılığı olan araşdırmalarında, həmçinin M.Mahmudov[2], E.Əzizov[3], M.Qənbərli[4] və İ.Həmidovun[5] filoloji səpkili əsərlərində söylənilən bir sıra fikir, düşüncə və nəticələr öyrəndiyimiz dövrdə cərəyan edən siyasi və ideoloji mübarizənin fəlsəfəsini və mənzərəsini dərindən anlamağa yardımçımız olmuşdur.

**Tədqiqatın mənbə bazası.**Xilafətin və eləcə də onun tərkibinə daxil olan ölkələrin və xalqların sözügedən dövrdəki tarixinin araşdırılmasında ərəbdilli mənbələr başlıca və öncül yer tutur.

Xronoloji ardıcıllıq baxımından ilk olaraq misirli müəlliflərdən Əbdürrəhman ibn Əbd əl-Hakəmin (802/3-871) «Kitab futuh Mısr va-l-Mağrib va-l-Əndəlüs» əsərini qeyd etmək lazımdır. Əsərin müxtəlif yerlərdə və zamanlarda nəşr olunmuş fərqli variantları olsa da, əsasən X.C.Torreyin hazırladığı və nəşr etdirdiyi, tədqiqatçıların tam və mükəmməl variant kimi dəyərləndirdiyi mətndən[6], daha çox isə onun S.B.Pevzner tərəfindən ruscaya edilmiş tərcüməsindən[7] yararlanmışıq.

Misirli müəlliflərdən ikincisi olan Səid ibn Batriqin (877-941) «Nəzm əl-Cövhər» adlı[8] əsəri məhz bizim tədqiqat dövrü ilə bağlıdır və 938-ci ilə qədər Misirdə baş verən hadisələrdən bəhs edir.

Ölkənin siyasi tarixinə aid ən gərəkli əsərlər görkəmli Misir tarixçisi Əbu Ömər Muhəmməd ibn Yusuf ibn Hafs ət-Təcibi əl-Kindinin (898-961) qələmindən çıxmışdır[9]. Onun əsərləri Misirin Xilafət dövrü tarixinin bütünlüklə və tam mənzərəsini yaratmaq sahəsində misilsiz və qiymətli bir mənbədir.

Qeyd edək ki, Kindinin əsərləri həmin dövrün misirli tarixçilərindən İbn Zulaq (919-997) tərəfindən tamamlanmışdır.[10] İbn Zulaqın əsəri «Axbar

---

[1] Y.Gözəlova. Orta əsrlərdə Avrasiyanın ticarət əlaqələri. Bakı: Təhsil, 2011

[2] Malik Mahmudov. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər, (VII-XII əsrlər). Bakı, 1983

[3] E.Əzizov. IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi. Bakı, 2004

[4] M.Qənbərli. Ərəb ədəbi-bədii qaynaqlarında türk. Bakı, 1998

[5] И.Гамидов. Ибн Кутейба ад-Динавари. Баку, Элм, 1998.

[6] The History of the Conquest of Egypt, North Afrika and Spain known as the Futuh Misr of Ibn Abd al-Hakam. Ed. by Ch.C.Torrey. New Hawen, 1922

[7] Аб ар-Рахман ибн Абд ал-Хакам. Завоевание Египта, ал-Магриба и ал-Андалуса. Перевод с арабского, предисловие и примечания С.Б.Певзнера, Москва, 1985 (sonralar: Абд ал-Хакам. Завоевание Египта).

[8] سعيد ابن بطريق افتيخوس الاسكندرى. نظم الجوهر، مصر: 1345 هـــ، بلاق، 255 صLugdiniBatawarum

[9] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، 336 ص.; الكندى ابو عمر محمد بن يوسف. قضاة مصر. رومية: ١٩٠٨ م، 207 ص (sonralar: الكندى ابو عمر محمد بن يوسف. قضاة مصر. رومية: ١٩٠٨ م، 207 ص).

[10] حسن ابراهيم حسن. تاريخ الاسلام السياسى والدينى والثقافى والاجتماعى. الجزء الثالث، القاهرة: ١٩٦١، المطبعة السادسة، 599 ص s.480

vulat Mısr» adlanır və Kindinin «Misirin valiləri» əsəri nəşr edilərkən ona əlavə olunmuşdur.[1]

Tarixi ədəbiyyatda daha çox əl-Yəqubi kimi tanınan müəllifin «Tarix»[2] əsərinin bölmələrindən birində Misirə də geniş yer verilmişdir. Tədqiqatımızda müəllifin «əl-Buldan-Ölkələr» adlı[3] əsərinə də müəyyən istinadlar edilmişdir.

Tədqiqatımız üçün yetərincə yararlı mənbələr sırasında böyük coğraf-alim Əbu-l-Həsən əl-Məsudinin əsərləri də vardır.

Məsudi çoxlu əsərlər yazsa da, onun yalnız iki kitabı bizə gəlib çatmışdır. Bunlardan birisi «Muruc əz-zəhəb va məadin əl-cəvahir» - Qızıl (təmizlənən) yerlər və cəvahir mədənləri», digəri isə «Kitab ət-tənbih va-l-işraf –Xəbərdarlıq və nəzarət kitabı» adlanır.[4] İ.Kraçkovski yazır ki, kitablardan birincisi tarixi, ikincisi coğrafi səciyyəli olsa da, onlar tarixi və coğrafi əsərlər arasında hədd qoymağın mümkünsüzlüyünü göstərə bilən nümunələrdir».[5]

Başqa bir fundamental əsər Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbərinin (838-923) «Tarix ər-rusul va-l-muluk – Peyğəmbərlərin və hökmdarların tarixi» əsəridir.[6] Biz tədqiqatımızın ehtiva etdiyi dövrə aid sonrakı məlumatları Ərib ibn Sə’d əl-Qurtubi (X əsr) adlı müəllifin «Silət tarix ət-Təbəri – Təbəri tarixinin davamı» adlı[7] əsərindən əldə etmişik.

Dəyərli mənbələrdən birisi də Əbu-l-Abbas əl-Bəlazurinin (892-ci ildə ölmüşdür) «Kitab futuh əl-buldan – Ölkələrin fəthi kitabı»dır. [8] Eyni adlı və eyni məzmunlu əsərlərdən birisi də X əsrin əvvəllərində Əbu Muhəmməd Əhməd ibn As’am əl-Kufi tərəfindən yazılmışdır.[9]

X-XI əsrlərin hüdudlarında yaşamış İbn Miskəveyhin qələmindən çıxmış «Təcarüb əl-ümməm – Xalqların təcrübəsi» adlanan[10] əsər Xilafətdə, o cümlədən Misirdə 980-ci ilə qədərki dövrdə baş verən hadisələrin şərhindən ibarətdir. İbn Miskəveyhi sələflərindən fərqləndirən cəhət onun öz fikir və

---

[1] حسن ابراهيم حسن. تاريخ الاسلام السياسى والدينى والثقافى والاجتماعى. الجزء الثالث، القاهرة: ١٩٦١، المطبعة السادسة، 599 ص s.480

[2] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. التاريخ. ليدن: ١٨٨٣ م، بريل، 560 ص

[3] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. البلدان. ليدن: ١٨٩١ م، بريل، 460 ص

[4] المسعودى ابوالحسن على بن الحسىن. مروج الذهب ومعادن الجوهر. مصر: ١٣٠٣ هـــ، دار الهلال، 397 ص؛
المسعودى ابو الحسن على بن الحسين. التنبيه والاشراف. ليدن: ١٨٩٣ م، بريل، 325 ص

[5] И.Ю.Крачковский. Изб., IV, с.172

[6] الطبرى محمد بن جرير. تأريخ الرسل و الملوك. الجزآن الـــ١٠ – ١١. مصر: ١٣٢٦ هـــ. دار المعارف، 1201 ص

[7] عريب بن سعد القرطبى. صلة تاريخ الطبرى. ليدن: ١٨٩٨ م بريل 247 ص

[8] البلاذرى احمد بن يحيى بن جابر. فتوح البلدان. القاهرة: ١٩٥٦ م، مطبعة لنجة البيان، 498 ص

[9] الكوفي ابو محمد ابن أصعم. كتاب الفتوح. حيدراباد: ١٩٧٥م، 318 ص

[10] ابن مسكويه ابو على احمد بن محمد تجارب الامم و تعاقب الهمم ٧ (٥) ، (٦) ، ليدن: ١٩١٣ م، بريل، ج 7- 520 ص

mülahizələrində qətiyyətli olmasıdır.[1]

Həmin dövr müəlliflərindən İbn Xordadbehin «Kitab əl-məsalik va-l-məmalik–Yollar və ölkələr» adlanan[2] əsəri istər özündən sonrakı dövrlərin tarixçilərini, istərsə də tədqiqatçılarını dəyərli bir qaynaq kimi ciddi şəkildə maraqlandırmışdır. Onun müəyyən hissələri bir sıra dillərə, tam mətni isə akad. N.Vəlixanlı tərəfindən rus dilinə tərcümə edilmiş və nəşr olunmuşdur.[3]

Tarix-coğrafi baxımdan önəmli əsərlərdən birisi də İbn əl-Fəqih (X əsr) tərəfindən yazılmışdır və «Kitab əl-buldan - Ölkələr» adlanır.[4]

«Əl-məsalik va-l-məmalik» adlı əsərlər seriyasını İstəxri (X əsr) və İbn Hövqəl (977-ci ildə ölmüşdür) kimi müəlliflər də davam etdirmişlər. İstəxrinin əsərində[5] ölkələrin inzibati bölgüsünə, şəhərlərin səciyyəvi cəhətlərinə xüsusi önəm verilirsə, İbn Hövqəl həmin səpkili məlumatları öz şəxsi müşahidə və mülahizələri ilə zənginləşdirməyə çalışmışdır.[6]

Bu janrda istifadə etdiyimiz mənbələr sırasında İbn Rüstə[7] (X əsr) və əl-Müqəddisinin[8](X əsr) də əsərləri vardır. Orta çağ tarixinin araşdırılmasında istifadəsi qaçılmaz və zəruri sayılan mötəbər mənbə kimi İzzəddin Əbu-l-Həsən ibn əl-Əsirin (1160-1234) «Əl-kamil fi-t-tarix-Mükəmməl tarix» əsəri xüsusi qeyd olunmalıdır[9]. Bununla bərabər İbn əl-Əsirin digər bir əsərindən[10] də istifadə olunmuşdur.

Misir tarixindən bəhs edərkən İbn Xəldunun (1332-1406) tarixi ədəbiyyatda «İbər –İbrət» adı ilə məşhur olan əsərinin[11] istifadəsi əvəzsizdir. İbn Xəldun öz əsərində Misir və onun xalqına da ayrıca bölmələr ayırmışdır. O, öz sələflərindən fərqli olaraq bəşər tarixinin gedişində baş verən proseslərin şərhində siyasi sistemlərin inkişafı və təkamülü prinsipinə

---

1 А.И.Колосников. Завоевание Ирана арабами. М., Изд-во «Наука», 1982, с.31

2 ابن خردادبه ابو القاسم عبد الله كتاب المسالك و الممالك. ليدن: ١٨٨٩، بريل، 359 ص

3 Ибн Хордадбех. Книга путей и стран. Перевод с арабского, комментарии, исследование, указатели и карты Наили Велихановой. Б., Элм,- 1986

4 ابن الفقيه الهمداني. كتاب البلدان. ليدن: ١٨٨٥ م، بريل، 398 ص

5 الاصطخرى ابراهيم بن محمد. كتاب مسالك الممالك. ليدن: بريل ، ١٨٧٠ م، 567 ص

6 ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بريل، 528 ص

7 ابن رستة ابو على احمد بن عمر. كتاب الاعلاق النفيسة. ليدن: ١٨٩١ م، بريل، 401 ص

8 المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م ، بريل، 499 ص

9 ابن الاثير عز الدين ابو الحسين على بن ابي الكرم محمد بن عبد الواحد الشيباني. الكامل في التاريخ، القاهرة: مصر ١٣٥٧ هـ، ج 7- 362 ج 8- 470 ص

10 ابن الاثير. اللباب في تهذيب الانساب. القاهرة: ١٣٥٣ هـ. ص392

11 ابن خلدون عبد الرحمن بن محمد. كتاب العبر و ديوان المبتدأ والخبر في ايام العرب والعجم والبربر ومن عاصرهم من زوى السلطان الاكبر. المجلد الرابع، بيروت: ١٩٥٨ م، دار بيروت، ج 4، 571 ص

yox, təsərrüfat formalarının təkamülü prinsipinə əsaslanmışdır.[1] Buna görə də, tədqiqatçılar İbn Xəldunu dövrünün ən böyük sosioloqu, sosialisti və hətta Marksdan öncəki dövrün marksisti adlandırırlar. Müəllifin bu cür adlara layiq görülməsi daha çox onun «Müqəddimə»[2] əsərinin məzmunu və yazılışının səciyyəvi cəhətlərindən qaynaqlanmışdır. Tədqiqatımızda İbn Xəldunun başqa bir əsərindən[3] də istifadə olunmuşdur.

Təqiəddin Əhməd ibn Əli əl-Məqrizinin (1364-1442) tarixi-coğrafi mövzuda yazılmış «Xitət»[4] adlı əsəri müsəlman Misiri həyatının bütün sahələri haqqında ən zəngin məlumatlara malikdir. Onun digər iki əsərindən[5] biri Misirdə yaşayan xristian qibtilərin vəziyyətindən, digəri isə ölkədə baş verən aclıq, qıtlıq və bahalıqdan bəhs edir. Müəllifin «Kitab ən-nuqud əl-islamiyyə - Qədim islam sikkələri»[6] adlanan başqa bir əsəri də vardır.

Misirli müəllif Şihab əd-din əl-Qəlqəşəndinin (1355-1418) «Subh əl-ə’şa fi sina’ət əl-inşa»- dilimizə hərfi olaraq «Yazılma sənətində pis görənlər (naşılar) üçün işıq» kimi tərcümə edilə bilər, -əsəri[7] isə indiyə kimi haqqında danışdığımız mənbələrdən onunla fərqlənir və əhəmiyyətlidir ki, hər cür siyasi, hərbi, inzibati, iqtisadi-maliyyə və s. xarakterli yazışmalar və sənədləri ehtiva edir.

İbn Təğribərdi Əbu-l-Muhasin Yusuf əl-Atabəkiyə (1411-1459) məxsus «Ən-nucum əz-zahira fi muluk Mısr va-l-Qahira –Misir və Qahirə məliklərinin (hökmdarlarının) parlaq ulduzları» adlı[8] əsərdə müsəlman Misirinin XV əsrin ikinci yarısına qədərki tarixi haqqında ən mötəbər məlumatlarla zəngindir.

İstifadə etdiyimiz tarixi qaynaqlar və onların müəllifləri haqqında şərhlərimizi bir xeyli də davam etdirə bilərdik. Lakin belə bir qənaətimizi diqqətə çatdırmaq istərdik ki, həmin əsərlərin ehtiva etdiyi məlumatlar da əsasən sözügedən mənbələrdə olduğu kimidir və irəlidə deyilənləri bir daha təkrarlamağa ehtiyac duymuruq. Lakin bununla yanaşı, onlardan bəzilərinin adlarını çəkməmək də düzgün olmazdı. Məsələn, İbn əl-Cauzi (1116-

---

[1] И.Ю.Крачковский. Изб., IV, с.433

[2] ابن خلدون. المقدمة ، القاهرة: ١٩٥٣ م، دار المعارف، 428 ص

[3] ابن خلدون. اخبار دولة بنى الاغلب بافريقيا و صقيلة. القاهرة: ١٨٤١ م، دار المعارف 225 ص

[4] المقريزى تقى الدين. ; المقريزى تقى الدين. كتاب اغاثة الامة بكشف الغمة. القاهرة: ١٩٤٠ م، المطبعة العمرية، 295 ص
المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324 ه

[5] المقريزى تقى الدين. كتاب اغاثة ;المقريزى تقى الدين. ذكر دخول قبط مصر في دين النصرانية. لندن: ١٨٢٨ م، 250 ص
الامة بكشف الغمة. القاهرة: ١٩٤٠ م، المطبعة العمرية، 295 ص

[6] المقريزى تقى الدين. كتاب النقود القديمة الإسلامية. القاهرة: ١٩٤٠ م، دار الهلال، 206 ص

[7] القلقشندى ابو العباس احمد بن على. صبح الاعشى في صناعة الانشاء. القاهرة: ١٩١٣ – ١٩١٩ م، بلاق، 385 ص

[8] ابن تغرى بردى ابو المحاسن يوسف الاتابكى. النجوم الزاهرة في ملوك مصر و القاهرة. الجزآن الثالث والرابع، القاهرة، ١٩٣٥– ١٩٣٧ م

1200)[1], Camaləddin əl-Əzdi (1171-1226)[2], Yaqut əl-Həməvi (1179-1229)[3], Əbu-l-Fərəc əl-İbri (1226-1286)[4], İbn Xəllikan (1211-1282)[5], Cəlaləddin əs-Suyuti (1445-1505)[6], İbn İyas (1448-1524)[7] və b. kimi məşhur tarixçilər və əsərləri həmin qəbildəndir.

Tədqiq etdiyimiz məsələlərin hərtərəfli araşdırılması üçün müxtəlif əlyazmaların məlumatlarına da müraciət olunmuşdur.

Mənbələr və ədəbiyyat məlumatlarından, tədqiqatçıların elmi nəticələrindən yararlanarkən çalışmışıq ki, 1) mənbələrin məlumatlarını müəlliflərin gördükləri, bəzən hətta iştirakçıları olduqları və ya sələflərindən əxz etdiklərini və dövrün mahiyyətini göstərən real hadisələrin toplamı kimi dəyərləndirək; 2) Avropa tarixçilərinin tədqiqatlarında bəzən az, bəzən isə lap çox səviyyədə avromərkəzçi ruhun olduğunu unutmayaq; 3) marksist, təbiidir ki, daha çox sovet tarixçilərinin əsərlərində zorakılığa tarixin yaradıcısı kimi baxılması haqqında məşhur kəlamın özünə yer tapması hallarını nəzərdən qaçırmayaq; 4) ərəb və qismən də rus-sovet tədqiqatçılarının bir sıra məsələlərə, xüsusən də Xilafətin çöküşü və onun səbəblərindən, əsasən də səbəblər sırasında türk amilindən yazarkən, ümumiyyətlə isə türklərə yanaşmada qərəzli və şovinist düşüncələrə meylli olmasına tarixi reallıqlar, həqiqətlər və tərəfsiz tarixçi gözü ilə baxaq.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatımızın mövzusu seçilərkən belə bir məqam əsas götürülmüşdür ki, yaranışından ərəb-müsəlman dövləti kimi tanınan Xilafət çox möhtəşəm uğurlarına baxmayaraq Əməvilər sülaləsi (661-750) hakimiyyətinin sonlarında həyatın bütün sahələrində olduqca kəskin və həlli görünməyən problemlərlə üz-üzə qalmışdı. Bundan narazı olan bütün qüvvələr xilas yolunu hakimiyyətə peyğəmbər nəslindən – Haşimilərdən olan Abbasilərin gətirilməsində gördülər və istəklərinə də nail oldular. 750-ci ildə taxt-tac Abbasilərə (750-1258) keçdi və bu, Xilafət tarixində keyfiyyətcə yeni bir dövrün başlanğıcı oldu. Ərəblərlə yanaşı digər xalqlar, - məsələn, türklər, farslar və digərləri kimi, - öz etnik qapalığından çıxdılar, islam sivilizasiyasının yalnız daşıyıcıları deyil, həm

---

[1] ابن الجوزى ابو الفرج عبد الرحمن بن على. المنتظم في تاريخ الملوك والامم. حيدراباد: الجزء السادس، ١٣٥٩ ه

[2] الازدى جمال الدين "كتاب اخبار الدول المنقطعة" (الدولة الاخشيدية. مصر و الشام) في كتاب - F.Wüstenfeld. Die Stathalter von Adypten zur zeit der chalifen. Göttingen, 1885

[3] ياقوت شهاب الدين الحموى الرومي البغدادى. كتاب معجم البلدان. ليبزج: ١٨٦٨ م، 426 ص

[4] ابو الفرج العبرى غريغوريوس. تاريخ مختصر الدول. بيروت: ١٨٩٠ م، دار بيروت، 346 ص

[5] ابن خلكان شمس الدين احمد. كتاب وفيات الاعيان وانباء انباء الزمان ، الجزآن الاول و الثانى. مصر: ١٢٩٩ هـ، مطبعة العامرة، ج 1ج1 - 320 ص، ج 2 - 223 ص.

[6] السيوطى جلال الدين عبد الرحمن. تاريخ الخلفاء و امراء المؤمنين. مصر: ١٣٠٥ هـ، مطبعة المدينة، 535 ص; السيوطى جلال الدين. حسن المحاضرة في اخبار مصر و القاهرة. مصر: ١٣٢١، مطبعة المدينة، 645 ص

[7] ابن اياس محمد بن احمد. تاريخ مصرالمشهور ببدائع الزهور في وقائع الدهور. القاهرة: مصر، ١٣١٢ هـ، 497 ص

də onun formalaşması və zənginləşməsində böyük rol oynadılar. Bizim də tədqiqatın başlıca məqsədi həmin problemin müxtəlif tərəflərini kompleks şəkildə öyrənmək, Xilafətin üzvi parçası olan Misirin timsalında əyalətdə bu prosesin gedişində üzə çıxan təzahürləri ümumiləşdirmək və sistemləşdirmək olmuşdur. Bu məqsəddən də çıxış edərək əsas diqqət aşağıdakılara:

– Abbasilərin hakimiyyətə gəlməsi ilə Misirdə etno-konfessional inteqrasiya prosesinin nəticələrini üzə çıxarmağa;

– ölkənin siyasi-hərbi həyatında öncə məvalilərin, qismən farsların, daha çox isə türklərin rolunun artmasını, türk amilinin dominantlığı, ölkədə türk sülalə hakimiyyətinin qurulmasını zəruri edən şərtləri araşdırmağa;

– Misirdə mərkəzdənqaçma meyllərinin nəticələrinin mahiyyətini təhlil etməyə;

– aqrar münasibətlərə yanaşmada fərqli elmi və ideoloji görüşlərin mahiyyətini açmağa, torpaq mülkiyyət formalarının meydana gəlməsində endogen və ekzogen amillərin rolunu müəyyənləşdirməyə;

– torpaq sahibi – kəndli və icma münasibətləri, onun təşkilində və hüquqi tənzimlənməsində dövlətin rolu və yerini göstərməyə;

– Abbasilər Misirində şəhərlərin dinamik inkişaf edən bir qüvvə kimi ölkənin tarixi tərəqqisinə təsiri və nəticələrini təhlil etməyə, şəhərlərin ümumi və fərqli cəhətlərini üzə çıxarmağa;

– sənətkarlıq, onun ayrı-ayrı sahələrinin yayılma coğrafiyası və inkişafı ilə bağlı səciyyəvi məqamlara aydınlıq gətirməyə;

– Misirdə daxili və xarici ticarətin tərəqqi və yüksəlişi ritminin davamlı qalmasında başlıca amillərin rolu və yerini dəyərləndirməyə, onun dünya ticarətində və iqtisadiyyatında oynadığı rolu və yeri müəyyən etməyə yönəlmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyindən bəhs edərkən bunları sadalamaq istərdik:

– Misirin VIII-X əsrlərdə siyasi və sosial-iqtisadi durumu ilə bağlı problemlər kompleks halda və hərtərəfli şəkildə, yəni bütöv olaraq araşdırılır;

– göstərilir ki, həmin dövrdə Misir Xilafətin üzvü bir parçası olsa da, tarixi-kulturoloji və coğrafi bir vahid kimi müəyyən özəlliklərə də malik idi;

– belə ki, Misirin müsəlman ərəblər tərəfindən işğalından sonra ölkənin avtoxton əhalisi qibtilər zorakı dini assimliyasiyaya məruz qalmadılar. Onlardan bir qismi müəyyən səbəblərdən islamı qəbul etsələr də , digərləri öz dinini və dilini, yəni etnik mənsubiyyətini qoruyub saxladılar.

– Abbasilər hakimiyyətinin ilk illərindən Misirdə islamlaşma və ərəbləşmə prosesinin güclənməsi etno-mədəni cəmiyyətlər arasında hər cür əlaqələrin inkişafı üçün geniş imkanlar açdı. Misir Xilafətin passioner coğrafiyasına çevrildi. Özünün keçmiş tarixi statusunu bərpa etdi;

– VIII-X əsrlərdə Misirin hərbi-siyasi həyatında türklərin yeri və rolu

gücləndi, onlar hərbi-siyasi elitanın dominant qüvvəsi oldular;

– Aqrar münasibətlərin tam halında, xüsusilə də Misirdə mövcud olan icmanın araşdırılması;

– Şəhər və şəhərli insanın xarakteristikası;

– Sənətkarlıq və bu sahədə texniki tərəqqinin mövcudluğu;

– Sənətkarlıqla ticarətin vəhdəti və bunun ticarət əlaqələrində yeri və rolu;

– Bütün bunların sonunda Misirin dünya ticarətində təsir gücünün yüksəlməsi məsələlərinə aydınlıq gətirildi.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Təbiidir ki, hər bir araşdırmanın elmi-nəzəri əhəmiyyəti, orada irəli sürülən yeni müddəalar və alınan nəticələrlə bağlıdır. Bu baxımdan deyə bilərik ki, tədqiqatımız ümumilikdə dünya və bəşəri sivilizasiya tarixinin, xüsusilə də islam sivilizasiyasının, daha çox da orta çağ müsəlman dövləti Xilafətin və onun tərkibində olmuş konkret ölkə tarixinin müvafiq problemlərini araşdırarkən gərəkli ola bilər.

Tədqiqatın praktiki əhəmiyyətinə gəlincə onun materiallarının orta əsrlər, əsasən də Şərq ölkələrinin tarixi, beynəlxalq əməkdaşlığın müxtəlif istiqamətləri haqqında ümumi və xüsusi xarakterli əsərlərin yazılmasında istifadəsi mümkündür. Bu sıraya ali məktəblər üçün dərslik və dərs vəsaiti, müvafiq ixtisaslar üzrə mühazirə və ixtisas kursları mətnlərinin hazırlanmasını da əlavə edə bilərik.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın ehtiva etdiyi məsələlərə dair müəllifin istər Azərbaycanda, istərsə də Almaniya, Türkiyə, Ukrayna və Özbəkistanda mötəbər elmi nəşrlərdə bir sıra məqaləsi çapdan çıxmışdır və bir monoqrafiyası işıq üzü görmüşdür. Tədqiqatın nəticələri haqqında xaricdə və ölkədə keçirilən beynəlxalq konfranslarda, eləcə də ölkə səviyyəli elmi toplantılarda məruzələr edilmişdir. Tədqiqat işi Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasının 2014-cü ilin 12 may və 24 oktyabr tarixli genişləndirilmiş iclasında kafedra və fakültə əməkdaşlarının, həmçinin AMEA-nın Tarix institutunun aparıcı medievistlərinin iştirakı ilə müzakirə olunmuş və müdafiə edilməyə məsləhət bilinmişdir.

**Tədqiqatın quruluşu.** Dissertasiya işinin quruluşu qarşıya qoyulmuş məqsəd və vəzifələrlə şərtlənmişdir. O, «Giriş», doqquz paraqrafı ehtiva edən dörd fəsil, «Nəticə» və istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «**Giriş**» hissəsində mövzunun aktuallığı və elmi mahiyyəti əsaslandırılır, tədqiqatın elmi yeniliyi, məqsəd və vəzifələri, metodoloji əsaslar, nəzəri-praktik əhəmiyyəti göstərilir, mənbə və elmi ədəbiyyat təhlil olunur, işin quruluşu və aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın «**Misir Abbasilər Xilafətinin yaranması, möhkəmlənməsi və yüksəlişi illərində**» adlanan **birinci fəslinin «Misir ilk Abbasi xəlifələri dönəmində»** adlı birinci bölməsində göstərilir ki, Əməvilər Xilafətinin (661-750) son illərində siyasi-hərbi və iqtisadi-sosial həyatın olduqca kəskin və çətin duruma düşməsi zəminində ölkədəki bütün narazı qüvvələri hakimiyyətə Abbasilərin gətirilməsi ideyası ətrafında birləşdirdi. Bu sırada hər addımda ayrı-seçkiliyə məruz qalan qeyri-ərəb kökənli məvalilərin[1] yeri daha böyük idi.[2] Onlar açıq şəkildə mövcud ayrı-seçkiliyə etiraz edirdilər. Quranın «əl-Hucurat» surəsinin 13-cü ayəsindəki –«Ey insanlar! Doğrudan da biz sizi ***xalqlara*** və ***qəbilələrə*** ayırdıq. Allah yanında ən dəyərli olanınız ondan ən çox qorxanınızdır»[3] - kəlamlarına əsaslanaraq ərəb-müsəlmanların qalib xalq kimi özlərini üstün tutmalarını rədd edir və bütün müsəlmanların bərabər hüquqlu olmasına çalışırdılar. Bunun nəticəsi olaraq «***şuubiyyə***» hərəkatı yaranmışdı. Müsəlmanların bərabərliyi ideyasının ilkin təbliğatçıları olan ***xəvariclər*** də bu məsələdə böyük rola malik idi. Narazı qüvvələr sırasında elə ərəblərin də sayı az deyildi.

Həmin ideyanın gerçəkləşdirilməsi istəyi məvalilərin tarixi vətəni Xorasan və Mavarənnəhrdə böyük əks-səda verdi. Onun başında duranlar – ***dailər*** özlərini açıq şəkildə ***əhl ət-təsviyə*** adlandırmağa və xalqı mübarizəyə çağırmağa başladılar. [4] 747-ci ildə Xorasanda qeyri-ərəb kökənli Əbu Muslimin rəhbərliyi altında başlayan[5] üsyan 750-ci ildə qalib gəldi və taxt-tac Abbasilərə (750-1258) keçdi. Həmin vaxtdan Xilafətin tarixində keyfiyyətcə yeni bir dövr – ***isti'cəm***[6] dövrü başlandı. Dövlət həyatında ərəblərlə yanaşı türklər, farslar və s. kimi qeyri-ərəblərin də rolu artdı. Etno-konfessional inteqrasiya prosesi gücləndi.

Qeyd edək ki, bu baxımdan Misirin təcrübəsi xüsusi önəm daşıyır. Belə ki, Abbasilərin hakimiyyətə gəlməsi ilə Misirin də hərbi-siyasi həyatında qeyri-ərəblərin, daha doğrusu, öncə məvailərin, az sonra isə onların təmsil etdiyi xalqların, özəlliklə də türklərin iştirakı artdı. Bunun əsası elə ilk

---

[1] Qeyd: Ərəblər itaət altına alınmış xalqların islamı qəbul etmiş kəsimini məvali adlandırırdılar.

[2] Е.А. Беляев. Арабы, с.192-193; Ф.М.Асадов. Арабские источники, сс.66-77

[3] Quran, surə 49, ayə 13

[4] J.Wellhausen. The Arabs Kingdom and its Fall, p.236

[5] M.A. Shaban. The Abbasides Revolution. Cambridge, 1970, p.88; Н.Ахундова. Тюрки, с.104-114

[6] İsti'cəm» - «əcəmləşmə» deməkdir və «əcəm» sözündən yaranmışdır (müəl.)

Abbasi valisi Salih ibn Əlinin (750-751) valiliyi dövründə qoyulmuşdur[1]. Tarixçi Kindi yazır: «o, Curcan əhlindən olan Mihsən ibn Hani əl-Kindini və qardaşı Yəzid ibn Hanını[2] şurtanın[3] başına gətirdi»[4]. Artıq 751-ci ilin mart ayında xəlifə Əbu-l-Abbas əs-Səffah (750-754) Misirin valiliyini əslən Curcandan olan Əbu Avn Əbd əl-Malik ibn Yəzidə tapşırmışdır[5]. Qeyd edək ki, istər vali, istərsə də digər vəzifələri tutan məvalilər öz işlərinin öhdəsindən layiqincə gəlirdilər. Bu səbəbdən də onların Misirdə idarəçilik işlərinə cəlb edilməsi təcrübəsi genişləndi. Xüsusilə də ikinci xəlifə Əbu Cəfər əl-Mənsur (754-775) ərəb-məvali əməkdaşlığına ciddi önəm vermişdir. Onun siyasəti oğlu xəlifə əl-Mehdi (775-785) və nəvəsi əl-Hadinin (785-786) dövründə xeyli dərəcədə qüvvətləndi.

Türklərin isə Misirdə valiliyə gətirilməsi xəlifə əl-Mehdinin (775-785) 779-cu ildə Əbu Sahil əl-Xərəsini[6] Misirin valisi təyin etməsi ilə başladı. Misir valiləri haqqında əsərin müəllifi Kindi əl-Xərəsinin şəxsiyyətini çox yüksək qiymətləndirmiş, başqa valilərdən fərqli olaraq onun haqqında ən tərifli sözlər işlətmişdir: «Əbu Salih hakimiyyət sahibi olan ən güclü insanlardan idi. Onların ən vüqarlısı, ən qədim soylusu və ən ciddi cəza verəni idi»[7].

Birinci fəslin "**Misirin hərbi-inzibati həyatında türk amilinin güclənməsi"** adlı ikinci bölümündə qeyd edilir ki, Harun ər-Rəşidin (786-803) hakimiyyət illərini Abbasilər xilafəti tarixində ən parlaq dövr, ən gözəl günlər adlandırırlar.[8] Həqiqətdə isə müəyyən iqtisadi və mədəni dirçəlişə baxmayaraq, məhz Harun ər-Rəşid dövründə nəhəng ərəb imperiyasının sona çatmasının başlanğıcı qoyulmuşdur: Məğrib ölkələri mərkəzi hakimiyyətdən aralandı, orada İdrisilər (789-cu ildə) və Əğləbilər (800-cü ildə) sülalələrinin hakimiyyəti yarandı.[9] Ən başlıcası isə onun ölümündən sonra sülalədaxili mübarizə aramsız xarakter aldı və prosesə çevrildi.

Xilafətin bütün siyasi və hərbi qüvvələri, – həm də daha çox etnik baxımdan, – iki yerə parçalandı: əsasən ərəb kökənlilər xəlifə əl-Əminin,

---

[1] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.119-120

[2] Qeyd: Deyilənlərdən bəlli olur ki, Mihsən və Yəzid qardaşları kindilər qəbiləsinin məvaliləri olmuşdur.

[3] Qeyd: Həmin dövrün «əş-şurta»sı yerinə yetirdiyi funksiyaya və mahiyyətinə görə müasir polis orqanlarına bənzəyirdi və tarixi mənbələrdə «divan aş-şurta» – «polis idarəsi» termini ilə ifadə olunmuşdur, - müəllif.

[4] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.119-120

[5] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.123

[6] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.144

[7] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.145

[8] Qeyd: Fərqli mövqe tutanlar da, məsələn, Y.A.Belyayev kimi, vardır. Bax: Е.А.Беляев. Арабы, с.214.

[9] E.Elçibey. Tolunoğulları devleti (868-905), s.32.

farslar və güclənməkdə olan türklər, – onların sırasında ərəblər də yox deyildi, – əl-Mə'munun tərəfində durdular.

Beləliklə də, ölkə vətəndaş müharibəsinə sürükləndi.

813-cü ilin yanvarında hərbi əməliyyatlar başladı və yarım ildən artıq davam etdi. Yalnız iyulda əl-Əminin öldürülməsi və əl-Mə'munun rəsmən xəlifə elan olunmasından sonra dayandırıldı.[1]

Tədqiqatçıların geniş yayılmış belə bir fikrini xatırlatmaq istərdik ki, xəlifə əl-Mə'munun (813-833) hakimiyyəti illəri Xilafətin elmi, ədəbi və mədəni həyatında böyük bir canlanmanın baş verməsi ilə yanaşı, sosial-siyasi və iqtisadi həyatda qarşıdurmalar və separatizmin güclənməsi və genişlənməsi ilə xarakterizə olunur.[2]

Məsələn, tarixi ədəbiyyatda 829-832-ci illər üsyanı[3] kimi tanınan hərəkat yalnız Misirin yox, bütün Xilafətin həyatında dərin izlər buraxmışdır. Üsyan görünməmiş vüsət aldığından 829-cu ilin oktyabrında xəlifə əl-Mə'mun qardaşı Əbu İshaqı türklərdən təşkil edilmiş dörd min nəfərlik ordu ilə Misirə göndərdi. Türk ordusu üsyançıları əzə bildi. Misirdə sabitliyi bərpa etdikdən sonra Əbu İshaq valiliyi xorasanlı – türk Əbdəveyh ibn Cəbələyə tapşırdı.[4] Əbdəveyh ibn Cəbələ (II.830-I.831) Abbasilər Misirinin tarixində birinci xorasanlı, ikinci türk vali olmuşdur.

Əbdəveyh ibn Cəbələ ölkədə sabitliyi sonacan qoruya bilmədi. Vəziyyət ağırlaşdı və xəlifə əl-Mə'mun 832-ci ilin fevralında Misirə gəlmək məcburiyyətində qaldı, şəxsən özü üsyana və üsyançılara qarşı mübarizənin başında durdu.[5] Bu işdə də onun ən yaxın köməkçiləri türklər, – Aşağı Misirdə buxaralı Əhməd ibn Bistam əl-Əzdi[6], Yuxarı Misirdə isə Afşinin köməyinə göndərilən Rəşid ət-Türki, - olmuşlar. Məhz onların sayəsində də üsyan yatırıldı.[7] Artıq 832-ci ilin martında xəlifə əl-Mə'mun başda vali Keydər Nəsr ibn Abdullah (II.832-IV.834) olmaqla Misirin hakimiyyətini qeyri-ərəblərə, -onların sırasında buxaralılar daha çox idi, - tapşırdı.[8] Xəlifə

---

[1] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.177

[2] А.Мюллер. История ислама, IV, сс.707-730; Е.А.Беляев. Арабы, сс.215-216; Camal əd-Din əş-Şəyyal. Tarix Mısr əl-islamiyyə, I, s.101; А.Алиев. Иран vs Ирак, сс.259-266; Н.Ахундова. Тюрки, сс.139-149

[3] Üsyan haqqında ətraflı bax: Р.И. Исмаилов. Восстание 829-832гг. в Египте,- Azərbaycan EA-nın «Xəbərləri» (tarix, fəlsəfə və hüquq ser.), Bakı, 1990, №3, c.43-49

[4] Yenə orada, s.216

[5] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.213

[6] Kindinin ifadəsincə «Əhməd ibn Bistam əl-Əzdi min əhli Buxara – Buxara əhlindən olan Əhməd ibn Bistam», Bax: s.216 الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، 336 ص

[7] Р.И.Исмаилов. Восстание 829-832гг. в Египте, сс.48-49

[8] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.216

əl-Mütəsim (833-842) dövründə isə bu sahədə türklər lap önə çıxdılar. Ərəblərin, xüsusilə nəsli-qəbilə aristokratiyasının mövqelərinə güclü zərbə vuruldu. Məqrizi yazır: «əmir əl-muminin əl-Mu'təsim… türklərin nəzarəti altına sığındıqdan sonra ərəbləri alçaltdı. Onları divandan çıxartdı, adlarını sildirdi və onları hər cür imtiyazdan məhrum etdi. Türkləri (isə) dövlətin arxası, süfrələrin ağası etdi».[1] Əl-Mütəsimin xələfi əl-Vasiq (842-847) də atasının yürütdüyü siyasətin davamçısı oldu.

Tədqiqatçılar əl-Vasiqinin varisi xəlifə əl-Mütəvəkkildən (847-861) bəhs edərkən xüsusi vurğulayırlar ki, onun hakimiyyətinin sonunda «zəifləmiş Abbasilər imperiyasının böhranı başladı».[2]

Əl-Mütəvəkkilin hakimiyyəti illərində Misirdən bəhs edərkən isə belə bir məqam diqqəti çəkir: nə qədərki bu ölkənin idarəçiliyinə məsul türk İtax sağ idi, onun tərəfindən təyin edilmiş valilər Hərsəmə ibn ən-Nadr əl-Cəbəli (II.848 – II.849), Hatəm ibn Hərsəmə (II.849 – IV.849) və Əli ibn Yəhya ər-Ərmini (IV.849 – V.850) dövründə ölkədə istiqrar hakim idi.[3] Lakin 850-ci ildə İtax öldürüldü və xəlifə onun Misirə aid səlahiyyətlərini oğlu vəliəhd əl-Müntəsirə həvalə etdi, bundan sonra Bağdadda baş verən kataklizmlər Misirdə də təkrarlandı. Çox keçmədi ki, vali Ənbəsə ibn İshaqın (IX.852 – X.855) hakimiyyəti illərində, onun Misirdə istiqrarı qorumaq və möhkəmləndirmək yolunda göstərdiyi bütün cəhdlərə baxmayaraq, vəziyyət xeyli dərəcədə kəskinləşdi, ölkə ciddi sınaqlar qarşısında qaldı.[4] Həmin səbəbdən də Ənbəsənin valiliyi çox sürmədi. O, 856-cı ildə vəzifəsindən çıxarıldı və bu hadisə Misir tarixi üçün iki cəhətdən xüsusi maraq doğurur: birincisi, Kindinin sözləri ilə desək, Ənbəsə Misirdə valilik edən sonuncu ərəb və ikincisi, cümə məscidində xalqla birlikdə namaz qılan sonuncu vali oldu.[5] Həmin dövrün ilk valisi Yəzid ibn Abdullah ət-Türki (XI.856 – IX.867) olmuşdur. Onun on bir illik valiliyi dörd xəlifənin: əl-Mütəvəkkilin (847-861), əl-Müntəsirin (861-862), əl-Müstəinin (862-866) və əl-Mütəzzin (866-869) zamanına təsadüf edir. Həmin vaxt kəsimi isə tarixçilər tərəfindən Abbasilər xilafətinin böhranlı günlərinin başlanması dövrü kimi xarakterizə olunur.[6] Mərkəzi hakimiyyətin belə ağır durumu səbəbindən Misirdə vali Yəzid ibn Abdullah ət-Türkinin ciddi problemlərlə üzləşəcəyi qaçılmaz idi.

Baş verən hadisələr fonunda dövrün görkəmli ordu başçısı türk Müzahim ibn Xaqanın (III.867- I.868) Misir kimi bir əyalətə vali təyin edilməsi məntiqi idi.

---

[1] لمقریزی تقی الدین. المواعظ و الاعتبار فی ذکر الخطط و الاثار ج 1-4' مصر' I, 1234 ه s.313
[2] Th.Nöldeke. Sketches from the Eastern History. Berlin, 1842, s.146
[3] Р.И Исмаилов. Алавитское движение в Египте в VIII-X вв., с.44-62
[4] Yenə orada
[5] Th.Nöldeke, s.146
[6] А.Мюллер, IV, с.741; А.Алиев. Иран vs Ирак, с.272; Н.Ахундова, Тюрки, с.191

Lakin vali Müzahim ibn Xaqan və xələfləri Misiri böhranlı durumdan çıxara bilmədilər. Gərginliklər yüksələn xarakter aldı və ölkədə Tulunilər dövlətinin (868-905) yaranmasına qədər davam etdi.

Tədqiqatın “**Misir Xilafətin siyasi tənəzzülü və süqutu dövründə”** adlı **ikinci fəsli** də iki bölmədən ibarətdir. Onun “**Misir Xilafətin siyasi tənəzzülü ərəfəsi və illərində”** bölməsində Xilafətin tənəzzülü və parçalanmasını doğuran səbəblərə münasibət bildirilmiş, hansının önəmli olduğu vurğulanmışdır.

Həmin illərdə güclənən və genişlənən türk amilinə ehtiyac daha da artdı və yüksəldi. Türklər təkcə hərbi zəfərlər qazanmaq üçün deyil, həm də xəlifənin hakimiyyətə gətirilməsi, dəstəklənməsi və qorunması sahəsində gərəkli bir güc mərkəzinə çevrildilər. Bütün bunların nəticəsi idi ki, Xilafətin tənəzzülə uğradığı və parçalanmaya məruz qaldığı illərdə türk sülaləsi Tulunilər Misirin hakimiyyətinə yiyələndilər.[1] Tulunilər sülaləsi və dövləti (868-905) haqqında onu söyləmək kifayətdir ki, dövlətin əsasını qoyan Əhməd ibn Tulun bir hökmdar kimi nəinki qonşularını, hətta Xilafətin özünü təhdid və məhv etmək iqtidarında idi. Tədqiqatımızda bu dövlətin daxili və xarici siyasətinə dair məsələlərə yetərincə aydınlıq gətirilmişdir.

Tulunilərin 905-ci ilin 11 yanvarında süqutundan sonra onlara tabe olan bütün ölkələr bütünlüklə mərkəzi hakimiyyətə-Abbasilər xəlifəsinə tabe edildi. Bu dövr baş verən hadisələrin mahiyyətinə görə iki mərhələyə bölünür: birinci mərhələdə Abbasilər Misirdə onlara qarşı çıxan qüvvələrlə mübarizə etmişdilərsə, ikinci mərhələdə Misirə yiyələnmək iddiasında olan Fatimilərlə üzləşməli olmuşdular.

Dissertasiyanın **II fəslinin “Xilafətin siyasi süqutu və Misir”** adlanan ikinci bölməsində qeyd olunur ki, Xilafətin siyasi süqutunun başa çatdığı 935-ci ilədək bütün əyalətlər mərkəzi hakimiyyətin tabeliyindən çıxmışdılar və Abbasilər imperiyasının nəhəng ərazisi bölüşdürülmüşdü.[2] Bir zamanlar güclü və qüdrətli hakimiyyət sahibi kimi bütün Xilafəti idarə edən və Bağdad xəlifəsi kimi tanınan Abbasilər sözün əsl mənasında Bağdadın, - və yalnız onun, - xəlifəsinə çevrilmişdilər və Xilafətin siyasi süqutu qaçılmaz olmuşdu. Bu səbəbdən Xilafət tərkibindəki ölkələrdə mövcud coğrafi-iqtisadi və etnik bağlılıq və birlik zəminində yeni-yeni dövlətlərin yaranması prosesi gedirdi. Onlardan biri də əslən[3] fərqanəli Muhəmməd ibn Tuğc

[1] E.Elçibəy. Tolunoğilları dövləti, s.13-318; Z.M.Hassan. Les Tulunides, s.3-347

[2] ابن مسكويه ابو على احمد بن محمد تجارب الامم و تعاقب الهمم ٧ (٥) ، (٦) ، ليدن: ١٩١٣ م، بريل، ج 7- s.106

[3] ابن الجوزى، كتاب صفة الصفوة. حيدراباد: ١٣٥٥ – ١٣٥٦ هـ، 202 ص s.347, IV s.57;

الازدى جمال الدين "كتاب اخبار الدول المنقطعة" (الدولة الاخشيدية. مصر و الشام) في كتاب ;

ابن خلكان شمس الدين احمد. كتاب وفيات الاعيان وانباء انباء الزمان ، الجزآن الاول و الثانى. مصر: ١٢٩٩ هـ، مطبعة العامرة،

ج1 - 320 ص، ج 2 - 223 ص, III, s.59;

tərəfindən Misirdə əsası qoyulan İxşidilər (935-969) dövləti oldu[1].

Bu dövlətin yaranması, möhkəmlənməsi və inkişafında sülalənin hakimiyyətinin əsasını qoymuş Əbu Bəkr Muhəmməd ibn Tuğc əl-İxşidin (935-946) şəxsi cəsarəti və iradəsi də önəmli rol oynamışdır. O, dostlarını və yerli əyanları ətrafına topladı, onları idarəçilik işlərinə cəlb edərək ölkədə sabitlik yaratmağı bacardı. Öncə daxili narazı qüvvələri və onları dəstəkləyən fatimiləri əzdi, ardınca isə maliyyə-xərac sistemini qaydaya saldı, Bağdada çatacaq vəsaiti tələb olunan səviyyəyə çatdırdı. Onun tədbirləri sırasında həmin vaxt Şam süğurlarında Bizansa qarşı vuruşan Xilafət ordusuna maddi və hərbi yardım göstərməsi də vardır.[2] Həmin dövrdə İxşidilərlə bölgədə onların rəqibinə çevrilmiş Həmdanilər (905-1007) arasında gərginləşən və pozulan münasibətlər də Muhəmməd ibn Tuğcun məharətli diplomatiyası sayəsində tənzim edildi.

Sözügedən dövrdə İxşidilər dövləti daxili və xarici siyasətdə müstəqil qərar verən və hərəkət edən bir səviyyədə idi. Həmin dövr dövlətin yüksəlişi tarixində zirvə olmuşdur və Muhəmməd ibn Tuğcun həyatının sonuna qədər davam etmişdir. Onun vəfatından sonra isə oğlu Onucur (14.VIII.946 – 30.XII.960) Misirin əmiri – hakimi oldu.[3] Lakin işin əslində o, heç bir hakimiyyətə sahib ola bilmədi. Həmin vaxtdan dövləti faktik olaraq iki adam idarə etməyə başladı. Bunlardan birincisi vəzir Əbu Bəkr əl-Mədarai idi və o, bütün mülki işləri öz nəzarətinə götürmüşdü; ikincisi isə Muhəmməd ibn Tuğcun vəsiyyətinə görə Onucurun qəyyumu təyin edilmiş Kafur idi. O da hərbi-siyasi hakimiyyəti ələ keçirmişdi. Hətta sonralar Kafurun (I.966-IV.968) şəriksiz hakimiyyəti də Misirin hərbi-siyasi və iqtisadi qüdrətini, pozulmuş daxili nizamı bərpa edə bilmədi.

İbn Zulaq[4], Yəyha əl-Əntaki[5], Əl-Əzdi[6], İbn Səid[7] və b. tarixçilərə görə, İxşidilərin sonuncu hökmdarı Əhməd Əbu-l-Fəvaris (968-969) dövründə

---

ابن سعيد المغربي. كتاب المغرب في حلى المغرب. ليدن: ١٨٩٩ م، بريل، 352 ص s.5;
ابن خلدون عبد الرحمن بن محمد. كتاب العبر و ديوان المبتدأ والخبر في ايام العرب والعجم والبربر ومن عاصرهم من زوى السلطان الاكبر. المجلد الرابع، بيروت: ١٩٥٨ م، دار بيروت، IV, s.658; Mər'i. Nüzhət ən-nazirin, vər.10v.

[1] كاشف سيدة اسماعيل. مصر في عصرالاخشيديين ، القاهرة: ١٩٨٩، مطابع الاهرام، 354 ص; Rafiq İsmayılov. İxşidilər dövləti (935-969-cü illər). Bakı, 2007

[2] ابن سعيد المغربي. كتاب المغرب في حلى المغرب. s.18

[3] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.311
ابن مسكويه ابو على احمد بن محمد تجارب الامم و تعاقب الهمم ٧ (٥) ، (٦) ، ليدن: ١٩١٣ م، بريل، ج 7 s.146 ,5(VII)

[4] الكندى ابو عمر محمد بن يوسف. ولاة مصر، بتحقيق الدكتور حسين نصار. بيروت: 1959، دار الكفر المعاصر، s.315

[5] الانطاكى يحيى ابن سعيد . ذيل لتاريخ سعيد ابن بطريك ، رقم REAŞİ SPb filialı – C 1708 s.78

[6] الازدى جمال الدين "كتاب اخبار الدول المنقطعة" (الدولة الاخشيدية. مصر و الشام) في كتاب s.61

[7] ابن سعيد المغربي. كتاب المغرب في حلى المغرب s.46

Misirdə baş verən və bütün ölkəni bürüyən qıtlıq, aclıq və bahalıq mövcud siyasi dərəbəylikdən də dəhşətli oldu. Əl-Əzdi yazır ki, sadalanan fəsadlar «xeyli artdı, hətta o dərəcəyə çatdı ki, insanlar meyit və it əti yeyirdilər»[1].

O biri yandan, xarici müdaxilələr artdı. 968-ci ilin oktyabr-noyabr aylarında qərmətilər Şama basqın etdilər, oradakı Misir qoşunlarını əzdilər və Rəmləyə qədər gəlib çıxdılar.[2] Az sonra isə, Misir və İxşidilərin hakimiyyəti altında olan Şam torpaqları Fatimilər tərəfindən tutuldu. 359-cu ilin məhərrəm (XI.969) ayından həmin ərazilərdə Fatimilərə beyət edildi.[3] İxşidilər dövlətinin süqutu başa çatdı. Misir Fatimilər xilafətinin (969-1171) tərkibinə qatıldı.

Dissertasiyanın iki bölmədən ibarət olan **III fəsli** "**Aqrar münasibətlər**" adlanır. Onun birinci bölməsi "**Problemə ümumi baxış və torpaq mülkiyyəti formaları"** ilə bağlı məsələləri ehtiva edir. Xüsusi vurğulanır ki, ərəb tədqiqatçıları bir qayda olaraq orta çağ müəlliflərinin yazdıqlarının təkrarından o yana getmir. Hətta sosial-iqtisadi problemlərə həsr olunmuş məxsusi tədqiqatlarda[4] belə, – onlar da lap çox azdır, - ən yaxşı halda torpaq mülkiyyəti formaları haqqında ümumi xarakterli məlumatlar verilir.

Görkəmli qərbli tədqiqatçılar daha çox siyasi proseslərin öyrənilməsinə önəm vermiş, sosial-iqtisadi məsələlərə, başqa sözlə desək, bölgədə təşəkkül tapan feodal quruluşunun ümumi və xüsusi cəhətlərinə, ən yaxşı halda, az diqqət yetirmişlər. Ümumiyyətlə isə, onların böyük əksəriyyəti təkcə sözügedən bölgədə deyil, bütünlüklə şərq ölkələrində feodalizmin mövcudluğunu inkar edir.[5]

Bizim tədqiqatımızın obyekti kimi Misirə gəldikdə, qeyd etmək istərdik ki, ərəb işğalına qədərki dövrdə bu ölkə Şərqi Roma və yaxud Bizans imperiyasının tərkibində idi. Həmin dövrdə Bizansda və onun bir parçası olan Misirdə feodal münasibətlərinin mövcudluğu və bu zəmində cəmiyyətin sosial-iqtisadi quruluşunda keyfiyyət dəyişiklərinin baş verməsi fikri tarixçilər arasında heç bir mübahisə doğurmur.[6] Heç kim də inkar etmir ki, işğallar ərəfəsində Misirdə rumlu əyanların əlində iri torpaq sahələri-malikanələr vardı və onlar kilsə və imperator torpaqlarını arxa plana sıxışdırmış, daha çox isə qibti əhaliyə məxsus orta və kiçik torpaq sahələrini öz

---

[1] الازدى جمال الدين "كتاب اخبار الدول المنقطعة" (الدولة الاخشيدية. مصر و الشام) في كتاب s.61

[2] الانطاكى يحيى ابن سعيد . ذيل لتاريخ سعيد ابن بطريك ، رقم REAŞİ SPb filialı – C 1708 s.83

[3] ابن الاثير عز الدين ابو الحسين على بن ابي الكرم محمد بن عبد الواحد الشيباني. الكامل في التاريخ، القاهرة: مصر ١٣٥٧ هـ، ج 7- 362 ص، ج 8- 470 ص ج 8 ’ ص 212

[4] البراوى راشد. حالة مصر الاقتصادىه عهد الفاطمىىن. القاهرة: ، بلاق، 376 ص 1969

[5] Ф.М.Ацамба, Л.И.Надирзаде. Развитие феодализма в Арабском Халифате, - Историография стран Востока (проблемы феодализма). Изд-во МГУ, 1977, с.249

[6] История Востока, т.II (восток в средине века). М., Из-во РАН, 2000, с.15

daxilində əritmişdi[1].

Misirdəki rumlu torpaq sahibləri dövlət hakimiyyəti ünsürlərinə malik idilər: malikanələrin idarə edilməsi, prinsipcə imperiyanın mərkəzi idarəçiliyini xatırladırdı və bu, onların – Qərbi Avropadakı torpaq mülkiyyəti formalarına yaxınlığının göstəricisi sayılmalıdır.[2]

Həmin dövrdə kəndli əməyinin nəticəsini mənimsəmənin başlıca forması isə haqqında feodalizmə keçid və ya tamamilə feodal dövrünün təsisatı kimi danışılan kolonat idi[3].

İşğallardan öncə ərəb cəmiyyətinin sosial - iqtisadi durumu haqqında söyləmək istərdik ki, tədqiqatçılar bir nəticədə yekdildirlər: haqqında danışılan dövrdə ərəb cəmiyyəti feodalizmə keçid dövrünü yaşayırdı.

Sosial-iqtisadi inkişaf baxımından bu səviyyədə, daha dəqiq desək, işğal etdikləri ölkələrdən, konkret halda Misirdən aşağıda dayanan ərəblər ölkədə mövcud olan sosial-iqtisadi münasibətlərin xarakterinə toxunmadılar. Daha doğrusu, ərəblərə müqavimət göstərilməyən ərazilərdə hər şey köhnədə olduğu kimi qalırdı, lakin müqavimət göstərilən ərazilər isə dövlət mülkiyyətinə çevrilirdi. Orta əsrin görkəmli alimi Əl-Mavərdiyə[4] görə dövlət torpaqlarına daxil idi: «1. ərəblər tərəfindən işğal olunan, lakin onların öz aralarında bölüşdürülməyən torpaqlar; 2. sülh müqaviləsi əsasında bəzi torpaqlar və bu iki halda olurdu: birinci halda həmin torpaqların mülkiyyətçiləri ölkəni tərk edirdilər və ikinci halda həmin torpaqların mülkiyyətçiləri işğalçıların xeyrinə öz hüquqlarından imtina edirdilər»[5]. Ölkənin yerli əhalisinin öncədən malik olduğu status-kvo isə toxunulmadan qaldı və qorunub saxlanıldı.

İstər ümumxilafət miqyasında, istərsə də onun tərkibinə daxil olan ölkələrdə aqrar münasibətləri araşdıran tədqiqatçılar bir məqamda yekdildirlər ki, sözügedən coğrafiyada: 1) dövlət torpaqları, 2) mülk torpaqları, 3) iqta torpaqları, 4) vəqf torpaqları və 5) icma torpaqları adlanan beş mülkiyyət forması olmuşdur.[6] Qeyd edək ki, erkən orta çağ ərəb mənbələrində bu

---

[1] Фихман И.Ф. Ремесло и крупное имение в византийском Египте (по данным греческих папирусов). –«Палестинской сборник», М.-Л., 1962, №7(70).

[2] Yenə orada

[3] Ангелов Д. О некоторых вопросах социально-экономической истории Византии, - «Вопросы истории», М., 1960, №2, с.92; Липщиц Е.Э. Об основных вопросах истории ранневизантийского феодализма, -«Вопросы истории». М., 1961, №6, с.101; Истории Византии, т.I, М., 1967, с.78

[4] Ətraflı bax: Надирадзе Л.И. Проблема государственной собственности на землю в Халифате в VII-VIIIвв., - Арабские страны. История, экономика, М., 1970, с.151-206

[5] Maverdii. Maverdii Constitiones politicae Ex recensione M.Engeri, Bonnae, 1953, p.256

[6] Б.Г.Заходер. История восточного средневековья, с.75-76; История Востока, II, с.126-129; Ф.И.Ацамба, Л.И.Надирадзе. Развитие феодализма в Арабском

torpaq mülkiyyəti formaları haqqında danışılsa da, onların hüquqi statusuna toxunulmamışdır.

Sonda onu da əlavə edək ki, Misirin ərəb-müsəlman dövlətinin tərkibinə qatılması şərtləri burada mövcud olan aqrar münasibətlər sisteminə, o cümlədən torpaq sahibliyi formalarının kəmiyyət və keyfiyyət göstəricilərinə təsirsiz qalmamışdır.

Torpaq mülkiyyəti formaları sırasında «səvafi» adlanan dövlət torpaq mülkiyyətinin və «iqta» -pay-torpaq, -təsisatının artması və genişlənməsi də ciddi bir təzahür idi. Həmin qəbildən olan mülkiyyət formalarının müxtəlif metaforizmlərinin baş verməsi, yalnız iqta torpaqları üçün deyil, eyni zamanda vəqf və icma torpaq sahibliyi üçün də xarakterik olmuşdur.

Tədqiqatın **III fəslinin "Feodal-kəndli və icma münasibətləri"** adlanan **ikinci** bölməsində VIII-X əsrlər Misirində mövcud olmuş aqrar münasibətlərin xarakterik cəhətləri araşdırılır. Bu zaman belə bir maraqlı məqam diqqəti cəlb edir ki, Bizans dövrünə məxsus nəinki torpaq sahibliyi, eləcə də sosial strukturların izləri uzun müddət saxlanılmış və sözügedən dövrdə də qalmaqda davam etmişdir. Bu barədə ərəb tarixi qaynaqlarında, -hərçənd ki, onlar adətən siyasi məsələlərdən bəhs edir,- qismən, yetərincə isə ərəb papiruslarında məlumatlar vardır[1].

Papirus məlumatlarının təhlili belə söyləməyə əsas verir ki, VIII-X əsrlərdə Misirdə iri torpaq sahibliyi ciddi transformasiyaya məruz qalmışdır. Sözügedən proses bəzən torpaq sahələrinin müsadirəsi və ya bağışlanılması, bəzən də ya sahibləri, ya da dövlət xəzinəsi vasitəsilə satılması zəminində baş verirdi. Sonuncu halda daha çox ərəblərin istər sabiq torpaq sahiblərindən, istərsə də dövlətdən ərazilər alması ənənəsi geniş yayılmışdı. Onların sırasında hakim sülalə üzvləri öndə gəlirdi.[2]

Hakim sülalə təmsilçilərinə məxsus torpaqlar «xass» adlanırdı. Məsələn,

---

Халифате, с.249-273; Əd –Duri. Tarix İraq əl-iqtisadiyyə, s.25; S.İ.Kaşıf. Mısr fi fəcr-l-islam, s.41-55; Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, s.127-131; A.Тер-Гевондян. Армаения и Арабский Халифат, с.178-180; Л.Р.Сюкияйнен. Мусульманское право собственности: юридические и религиозные основы, «Арабский Восток, ислам, древняя Аравия», сборник статей (посвященный 60-летию В.В.Наумкина). М., 2005, с.277-287

[1] Grohman A. Arabic papyri in the Egyptian Library, vol. III, Cairo, 1938 (sonralar: -APEL); Abbot N. The Kurrah Papyri from Aphrodito in the Oriental Institute. Chicago, 1938 (sonralar: KPA); Becker C.H. Arabische Papyre des Aphroditofundes, -"Zeitschrift für Assyriologie und verwandte Gebiete", 1907, Bd XX, Hft 1-2 (sonralar: RAF); idem. Neue arabische Papyri des Aphroditofundes.- Der Islam", 1911, BD II, Hft I (sonralar: NPAF); Veröffentlichungen ans der Heidelberger Papyrus – Samlung III. Papyri Schott- Reinhardt I, Hrsg. Von C.H.Becker. Heidelberg, 1906 (sonralar: PSR)

[2] Abd al-Munin Mukhtar. On the Suvivad of the Byzantine Administration in Ehypt the First Gentury of the Arab Rule. –"Acta Orientalia", 1973, t.17, fasc. 3, p.310

Əhnasın cənubunda Abbasi xəlifəsi əl-Mütəvəkkilin (847-861) anasına məxsus torpaqlar var idi.[1] Onun digər torpaq mülkləri Əşmuneyn kurasında yerləşirdi.[2] Əşmuneyndə həm də xəlifə əl-Mutəmidin (870-892) oğlu Cəfərə məxsus torpaq sahələri də var idi.[3] İxşidilər sülaləsinə (935-969) məxsus torpaq sahələri isə ölkənin müxtəlif əyalətləri boyunca səpələnmişdi.[4] Xilafətin başqa ölkələrində olduğu kimi, Misirdə də torpaqların icarəyə verilməsi təcrübəsi geniş yayılmışdı və bu barədə istər papiruslarda, istərsə də tarixi mənbələrdə yetərincə məlumatlar vardır. Torpağın icarəyə verilməsi müvafiq müqavilələr bağlanması əsasında həyata keçirilirdi. Əlavə edək ki, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsini xərac divanı yerinə yetirirdi. İri torpaq sahibləri isə bu işi özləri icra edirdilər. Arzu edən istənilən şəxs torpağı icarəyə götürə bilərdi. Mülkiyyətçi-icarədar arasında bağlanan müqavilənin etibarlıq müddəti dörd il müəyyən edilirdi[5]. İcarəyə götürülmüş torpaq üçün ödəmələr icarədar və xərac divanın arasında imzalanmış razılaşmaya əsasən ya birdəfəlik, ya da, - həm də çox halda, - hissə-hissə ödənilirdi.[6] Bunu da xüsusi qeyd etmək istərdik ki, icarəyə götürülmüş torpaqlar üçün ödəmələr bütün dövrlərdə və hallarda, - tədricən də olsa, -yüksələn xarakter daşıyırdı və bu ənənə dəyişməz olaraq qalırdı. Mənbələrdə,-çox olmasa da,-torpaqların vasitəli icarəyə (subarenda) verilməsi hallarının olması haqqında da məlumatlara rast gəlinir.

Əbu Yusif (VIII əsr) özünün «Kitab əl-xərac» əsərində icarədarlığı «muzaraa» adlandırır və onun ehtiva etdiyi şərtlər baxımından beş növü olduğunu yazır.[7]

VIII-X əsrlər Misirində mövcud olan aqrar münasibətlər sistemində ***icmanın*** da məxsusi yeri və rolu var idi. Araşdırmaçıların ümumi qənaətinə görə, istər son Roma və son Bizans dövrlərində, istərsə də ərəb işğalından sonra Misirdə icmanın mövcudluğu heç bir şübhə doğurmur və hətta onun varlığına yetərincə ehtiyac duyulurdu. Görkəmli ərəbşünas L.İ.Nadiradzenin və eləcə də digərlərinin müşahidələrinə görə bölgədə yaranmış yeni şərait kənd icmalarının möhkəmlənməsi və təsərrüfat həyatının tənzimlənməsi sahəsində onun aradan qalxmaqda olan funksiyasının dirçəlməsini zəruri etdi.[8] Kənd-ərazi icmalarının sözügedən dövrdə Misirdə mövcud-

---

1 PERF, №759

2 PERF, №793

3 Yenə orada, №836

4 Grohmann A. Arabischen Papyri aus der Giessener Unixersitats biblithek Giessen. 1960, c.67

5 المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4' مصر' 1324 ه I, s.131

6 Yenə orada

7 Абу Йусуф Йакуб ибн Ибрахим ал-Куфи. Китаб ал-харадж (мусульманское налогообложение). Перевод с арабского языка А.Э.Шмидта., СПб, 2001, с.104

8 Надирадзе Л.И. Община на территории восточного Халифата в VII-VIII вв., - в кн. Арабские страны. История, экономика. М., 1966, с.233; Семенова Л.А. Из

luğunu bizə gəlib çatan qibti sənədləri də təsdiqləyir.[1] Tarixçilər Misirdə icmaların daha sonrakı dövrlərdə də mövcudluğunu qeyd edirlər.

İcmaların özünü idarə sisteminə gəlincə, onun ehtiva etdiyi məsələlər icma üzvləri - kəndlilərin ümumi toplantılarında: 1) ictimai və təsərrüfat xarakterli məsələlərin müzakirəsi və müvafiq qərarların qəbulu; 2) icma üzvləri - kəndlilərin özləri arasında, yəni icma daxili münasibətlərin və 3) icma üzvlərinin qonşu icmalarla, yəni icmalararası münasibətlərin tənzim edilməsi; 4) icma başçıları və icmanın digər vəzifəli şəxslərinin seçilməsindən ibarət idi.[2] Bunlardan əlavə icmalar öz gücləri ilə onlara məxsus olan ərazidə bəzi işləri birlikdə, yəni elliklə icra edirdilər.

Bununla yanaşı zamanın gedişatı boyunca icma torpaqlarının hüquqi statusunun ciddi dəyişikliyə uğraması, yəni icma üzvü olan kəndlilərin mülkiyyətini zəbt etmə, satın alma və hədiyyə olunma kimi yollarla ayrı-ayrı feodallar tərəfindən ələ keçirilməsi zəminində həmin mülkiyyətin məzmununda əsaslı dəyişiklik baş verirdi.

Dissertasiyanın **“Şəhərlər, sənətkarlıq və ticarət”** adlanan **IV fəsli** üç bölmədən ibarətdir. Onun “**Şəhərlər”** adlı **birinci** bölməsində islam dünyası şəhərləri haqqında sələflərimizin elmi düşüncə və nəticələri[3] yetərincə dəyərləndirilir, fərqli «müsəlman şəhəri» anlayışına təsdiqini tam tapmayan ehtimallar kimi yanaşılır və «müsəlman şəhəri»[4] coğrafi məkan kimi qəbul edilir. Qaynaqlarda şəhər anlamının necə ifadə edilməsinə gəlincə, onun öz başlanğıcını «Quran»dan götürdüyü haqqında müddəa xüsusi vurğulanır. Quranda dəqiq və yeganə mənası şəhər olan termin «mədinə» sözüdür[5]. Bununla yanaşı «Quran»da «qaryə» və «bələd» kimi müxtəlif məna yükü daşıyan sözlər də vardır[6]. IX-XI əsr tarixçiləri Təbəri[7] və İstəxri[8] eyni yaşayış məskəni haqqında «mədinə», «bələd» və «qaryə» terminlərini işlətmişlər. İbn Xordadbeh isə ümumiyyətlə şəhərləri, - konkret olaraq da Misir şəhərlərini, - sadalayarkən onları «kura-əyalət» mərkəzləri kimi təqdim edir[9]. İbn Hövqələ gəlincə, o, sələflərindən fərqli olaraq, «mədinə-

---

истории Фатимидского Египта, М., 1974, с.53

[1] Еренштедт П.В. Копские тексты Государственного Эрмитажа. М.,-Л., 1959

[2] Ернштедт П.В. Копские тексты, №22

[3] Большаков. О.Г. Средневековый город Ближнего Востока (VII- середина XIIIв.), М., 1984, s.9-11

[4] Yenə orada; Y.Gözəlova. Xilafətin iqtisadi sisteminin təşəkkülü, - Pedaqoji Universitetin Xəbərləri (Humanitar elmlər seriyası). Bakı, 2008, №2, s.109

[5] Quran, 7(111); 12(67); 15 (67); 28(17) və s.

[6] Yenə orada, 27(56)

[7] الطبرى محمد بن جرير. تأريخ الرسل و الملوك. الجزآن الـ١٠ – ١١. مصر: ١٣٢٦ هـ. دار المعارف، C. III, s.2258 ص 1201

[8] Əl-İştəxri İshaq. Əl-məsalik va-l-məmalik. Leyden, 1870, s.72-73

[9] ابن خردادبه ابو القاسم عبد الله كتاب المسالك و الممالك. ليدن: ١٨٨٩، بريل، s.87

şəhər» anlamınının sosial mahiyyətini açmağa çalışmışdır. Onun şəhər haqqında verdiyi ümumi xarakteristikaya əl-Müqəddəsi müəyyən xüsusiləşmə məqamları gətirmişdir. Ona görə, şəhər bir sosial orqanizm kimi daşıdığı funksional bir təyinatın mənası baxımından müxtəlif cür adlana bilər. Şəhər anlamı haqqında müəyyən fikrlər söyləyən orta çağ tarixçilərindən əl-İdrisyə (XII əsr)[1] və Yaqut əl-Həməviyə (XIII əsr)[2] görə müxtəlif təyinatlı tikililər və sakinlərin məşğulluq sahəsi, - sənətkarlıq fəaliyyəti, - «mədinə»nin, yəni şəhərin kənddən başlıca fərqliyidir. İbn Cübeyr (XIII əsr) şəhərin ən mühüm və məxsusi cəhəti kimi oradakı dini və dünyəvi xarakterli tikililərin daha çox olmasını[3], İbn Xəldun (XIV əsr) isə əhalinin sənətkarlıq və ticarət fəaliyyəti sahəsində ixtisaslaşmasını[4] önəmli sayır.

Orta çağ tarixçilərinin məlumatlarına əsaslanaraq sosial-iqtisadi kateqoriya kimi bir neçə şəhər tipi olduğunu söyləyə bilərik. Bunlardan: birincisi, aqrar tipli şəhərlər idi, - onlar aqrar əlavəsi, ən başlıcası isə istər mülkiyyətçi, istərsə də sosial mənsubiyyət baxımından təbəqələşməyə az məruz qalmış əhalisi ilə fərqlənirdilər; ikincisi, sosial təbəqələşmənin kəskinləşmədiyi şərtlər mühitində orta səviyyəli mülkiyyətçilərin yaşadığı sənətkarlıq və ticarət şəhərləri; üçüncüsü, iri şəhərlər idi ki, burada inkişaf etmiş və təmərküzləşmiş, əsasən xarici bazara işləyən sənətkarlıq və ticarət fəaliyyəti mövcud idi, sosial təbəqələşmə isə çox yüksək səviyyəyə qalxmışdı.

Bütünlükdə şəhərlərin hamısını birləşdirən ən mühüm amil isə onların iri və xırda kuraların mərkəzi olması idi. Başqa sözlə desək, bu şəhərlər mərkəzi hakimiyyətin bütün ölkəboyu yayılmış idarəçilik şəbəkəsi idi və hər şeydən öncə, mövcud siyasi rejimin var olmasına xidmət edirdi. Onlar, eyni zamanda, ölkənin müəyyən iqtisadi ehtiyaclarının ödənilməsində də gərəkli xidmətlər göstərirdilər və bu zəmində daha çox sənətkarlıq, - hətta bəzi hallarda aqrar, - məmulatları istehsalçıları, həm də satıcıları və alıcıları rolunu oynayırdılar. Dini, elmi və mədəni mərkəz olaraq ölkə və onun xalqını bütövləşdirən sivilizasiyanın və əqli-intellektual birliyin yaranmasında, bərqərar olmasında və inkişafında həlledici amil idilər.

Dördüncü fəslin **"Sənətkarlıq"** adlı **ikinci** bölməsində göstərilir ki, Abbasilər dövrü Misirində şəhərlərin bir sosial orqanizm kimi funksional təyinatları sırasında iki məqam hamısı üçün xarakterdir. Onlardan birisi sənətkarlıq, digəri isə ticarətdir. Həm də hər iki fəaliyyət sahəsində inkişaf vardı və o, yüksələn xətli idi. Sözügedən zaman kəsiyində Misirdə istər sənətkarlığın, istərsə də ticarətin inkişafında yerli şərtlərin təsiri böyük

---

1 الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. رومية: ١٨٩٢ م، 346 ص ص.48

2 ياقوت شهاب الدين الحموى الرومي البغدادى. كتاب معجم البلدان. ليبزج: ١٨٦٨ م، 426 ص s.113

3 İbn Cubeyr Muhəmməd. Rihlət İbn Cubeyr. Əl-Qahira, 1955, s.61

4 ابن خلدون. المقدمة ، القاهرة: ١٩٥٣ م، دار المعارف، 428 ص II, s.12,

olmuşdur. Bu da hər şeydən öncə Misirdə «mükəmməl və zəngin şəhər (oturaq) sivilizasiyasının mövcudluğundan qaynaqlanırdı».[1] Həmin səbəbdən də sözügedən dövrdə zövqlü geyinmək qabiliyyəti və məharəti yüksək kamillik dərəcəsinə çatmışdı.[2] Həmin ehtiyacı ödəmək zərurəti isə toxuculuğu və onunla bağlı sənətləri ən önəmli fəaliyyət sahəsinə çevirmişdi.

Misirli sənətkarlar kətandan, yundan və ipəkdən müxtəlif çeşidli parça və paltarlar toxuyurdular. Pambıqdan toxunan parça və paltarların olmasına dair məlumatlara da rast gəlinir. Onu da qeyd edək ki, toxuculuqda daha çox istifadə olunan material kətan idi. O, ölkənin özündə istehsal olunurdu və orta çağ müəlliflərinin əsərlərində bu haqda istənilən qədər məlumat var.[3] Kətandan sonra mühüm yeri yun parçalar tuturdu. Yunun özü də Misirdə istehsal olunurdu və bunun üçün ölkədə təbii ehtiyatlar kifayət qədər idi. Orta çağ müəllifləri Yuxarı Misirdə Fəyyum[4], Asyut, Əxmim[5] və Asuan ətrafındakı ərazilərdə qoyunçuluğun çox inkişaf etdiyini söyləyirlər[6]. Həmin qəbildən olan məlumatlar Nasir Xosrovun «Səyahətnamə»sində də vardır. İpək və pambıq parçalara gəlincə, onların islamdan öncəki dövrdə də[7], ondan sonrakı və eləcə də sözügedən dövrdə də istehsal olunması barədə faktlar yetərincədir.[8] Məqrizi Misirdə kənd təsərrüfatı işlərinin təqvimini verərkən «baramxat» ayında ipək qurdlarının dirilməsindən bəhs edir.[9] S.D.Qoyteyn də Qahirədəki yəhudi «Genizə»sində tapılan və sözügedən dövrdən bəhs edən sənədlərə əsasən hətta ipək parça istehsalı sənəti üzrə müəyyən ixtisaslaşma getdiyi, ipək qurdundan barama almaq, baramadan ip əyirmək və ondan parça toxumaq kimi proseslərlə ayrı-ayrı məxsusi adamların məşğul olması qənaətinə gəlmişdir.[10]

Toxuculuqda istifadə edilən pambıq liflərin isə yerli xammaldan alınması fikri şübhə doğurmur. Məqrizinin «Xitət» əsərində «mısra» ayında

---

[1] V, s.383, 383, 428 ص ،ابن خلدون. المقدمة ، القاهرة: ١٩٥٣ م، دار المعارف

[2] А.Мец. Мусульманский ренессанс, с.365.

[3] Chronigue de Michel le Syrien, patriarche jacobite d'Antioche, III, Paris, 1905, p.63; I, s.286ه 1324 ’المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر

[4] IV, s.113 :ابو الفداء اسماعيل ابن على بن محمود بن محمد. صاحب المختصر في اخبار البشر، المجلد الاول، الجزء الثالث. بيروت
١٩٥٩ م، دار بيروت، 346 ص

[5] I, s.190ه 1324 ’المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر

[6] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. رومية:
١٨٩٢ م، 346 ص ص. 22

[7] И.Ф.Фихман. Египет на рубеже двух эпох, с.16

[8] С.Б.Певзнер. Тканы как источник для истории средневекового ремесла Египта. Палестинский сборник, вып. в (72), М., - Л., 1962, с.129

[9] I, s.271ه 1324 ’المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر

[10] S. D.Goitein. A Mediterranean Society. c.104

ölkədə pambıq yığılmasından danışılması[1] da bunu təsdiqləyir. IX əsrə aid papiruslar arasında Misirdə pambıq əkilməsi[2] və pambıq əkənlərlə hesablaşmalara[3] dair sənədlər vardır. X əsrə aid başqa bir sənəddə isə pambığın qiymətindən bəhs olunur.[4] Bu qəbildən olan məlumatları İbn Məmati də qələmə almışdır[5].

Suriyalı Mixail[6], Nasir Xosrov[7], Məqrizi[8] və b. kimi mötəbər müəlliflər Tinnis, Dumyat, Asyut, Dəbiq, Fustat və İskəndəriyyə kimi şəhərlərin iri toxuculuq mərkəzləri olduğunu yazırlar. Qaynaqlarda, eləcə də çağımıza gəlib çatan parçaların üzərində onların kəndlərdə də toxunulduğuna dair qeydlər vardır. Belə kəndlərdən Tuna, Bura, Naşa, Şata[9] və s.-nı göstərə bilərik. Məsələn, irəlidə sözügedən toxuculuq mərkəzlərinin böyük əksəriyyəti Aşağı Misirdə yerləşmişdi. Şəhərlər də öz növbəsində, istehsal olunan toxuculuq sənəti məmulatlarının materialından, çeşidindən və rəngindən asılı olaraq ixtisaslaşırdı. Belə ki, kətan parçalar Aşağı Misirin İskəndəriyyə,[10] Dumyat, Tinnis kimi şəhərlərində[11], Dəbiq və Şata[12] kimi kəndlərində toxunurdu. İskəndəriyyə həm də ipək parçalar toxunması ilə məşhur idi.[13] İpək materiallar Fustat və Şatada da istehsal olunurdu.

Nasir Xosrovun «Tinnis şəhərində bütün dünyada bərabəri olmayan «buqələmun» [adlı parça] toxuyurlar. O, günün hər vaxtında bir rəng vuran qızıl parçadır. Bu parçanı Tinnisdən Batıya və Doğuya aparırlar»[14], - sözləri isə şəhərdə toxunan parça materiallarının təkcə Misirdə yox, həm də yaxın və uzaq ölkələrdə də böyük şöhrət tapdığına gözəl dəlalətdir. «Buqələ-

---

[1] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324ه I, 273

[2] A.Grohman. Əvraq əl-bərdi əl-ərəbiyyə bi Dar əl-kutubiyyə, c.II, s.198

[3] A.Grohman. Əvraq əl-bərdi əl-ərəbiyyə bi Dar əl-kutubiyyə, c.II, s. 57,58

[4] Yenə orada, s.78

[5] İbn Məmati. Qəvanin əd-dəvavin, c.265

[6] Chronigue de Michel le Syrirn, III, c.63

[7] ناسر خسرو. سفرنامه بانضمام روشناى نامه و سعادت نامه (فارسجه). برلين: 1962، 258 ص. s.51-53

[8] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324ه I, s.286

[9] С.Б.Певзнер. Египетские тканы, c.124; yenə onun: Фатимидский тираз из собрания Государственного Эрмитажа. Эпиграфика Востока, М., 1960, т.XIII, c.37

[10] Семенова Л.А. Из истории Фатимидского Египта, c.62

[11] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324ه I, s.286

[12] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324ه s..285

[13] A.Marzouk. History of textile industry in Alexandria. Alexsandrria University Press, 1955, p.63; yenə onun: مجيد عبد المنعم. تاريخ الحضارة الإسلامية في العصور الوسطى. القاهرة: 1965, s.49
١٩٨٦، دار الهلال، 401 ص

[14] Yenə orada, s.51

mun»dan başqa «qasab» adlı əlvan rəngli parçalar[1], «bərabəri dünyada istehsal edilməyən «bədənə» adlanan və xəlifələr üçün toxunan gözəl paltarlar», «Tiraz» adlanan kətan paltarlar və eləcə də «saduc»[2] Tinnis toxucularının əməyinin məhsulu idi.

Qaynaqlardakı məlumatlar belə nəticəyə gətirir ki, toxuculuq sənətində ciddi differensiasiya baş verirdi və yeni yaranan sənətkarlıq sahələrinin hər birinin ümumi istehsal prosesində öz xüsusi yeri və çəkisi var idi. Həmin hal digər sənətkarlıq sahələri üçün də məqbul sayıla bilər. Qaynaqların məlumatları toxuculuqla bağlı iki mühüm məqsədə aydınlıq gətirmək baxımından da maraq doğurur. Bunlardan birisi parça və paltarlara bəzək və naxışların vurulmasıdır. İkinci məsələ isə parça və paltarların, yaxud onların istehsalı üçün istifadə olunan lif və ipliyin boyanmasıdır. Başqa sözlə, boyaqçılıqdır. Boyaqçılıq (ərəbcə: sibağə), müstəqil sənətkarlıq sahəsi idi. Sözügedən dövrdə Misir müxtəlif təyinatlı və müxtəlif tutumlu gəmilərin inşasına görə də layiqli ad çıxarmışdı və Xilafət öz hərbi və mülki donanmasının yaranması üçün bu ölkəyə borcludur[3].

Gəmi inşası mərkəzləri sırasında İskəndəriyyə, Dumyat, Qulzum və Eyzab şəhərləri də məxsusi yer tuturdu.

Abbasilər Misirində geniş yayılmış sənətkarlıq sahələrindən birisi də nəbati mənşəli xammala əsaslanan şəkər istehsalı idi. Bu hal, hər şeydən öncə, ondan qaynaqlanırdı ki, istehsalın xammal bazası sayılan şəkər qamışı, demək olar ki, bütün ölkədə becərilirdi. Həm Aşağı Misirdə[4], həm də Yuxarı Misirdə[5] geniş şəkər qamışı tarlaları vardı. Şəkər istehsalının coğrafiyası bütün ölkəni ehtiva edirdi. Lakin ən məşhur mərkəz Fustat idi. Burada nəinki çoxsaylı şəkər istehsalı sexləri, -mətbax, cəmdə: mətabix, - həm də xammal satışı bazaları, - funduq əl-qasab, - fəaliyyət göstərirdi.[6] Şəkər istehsalı sexləri dövlətə və şəxslərə məxsus olmaqla iki yerə bölünürdü.

İbn əl-Fəqihin (X əsr) sözləri ilə desək, «papirus [istehsalı] misirlilərin işidir və bu sahədə onların şəriki yoxdur».[7] Papirus kağızları emalı sənətinin normal və aramsız fəaliyyəti üçün ölkədə yetərincə xammal-papirus qamışı vardı və o, Nil çayının münbit sahilləri boyunca bitirdi. Ayrı-ayrı mərkəzlərdə istehsal olunmuş papirus kağızları ölkənin müxtəlif şəhərlərinə

---

[1] Yenə orada.

[2] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324 ه I, s.286

[3] İsmayılov R. İxşidilər dövləti, Bakı, 2007, s.138

[4] ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بريل، 528 ص s.138

[5] المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4’ مصر’ 1324 ه I, s.202;

ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص c. V, s33.

[6] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص C. IV, s.40

[7] ابن الفقيه الهمداني. كتاب البلدان. ليدن: ١٨٨٥ م، بريل، 398 ص s.66

göndərilir və xüsusi bazarlarda, - asvaq əl-varraqın, - satılırdı. Bazarlarda «dəkakin əl-varraqın» adlanan köşklərdə müəyyən şəxslər kitabların yeni nüsxələrini hazırlayır və satırdılar.[1] Nəbati mənşəli xammalın emalına əsaslanan sənətkarlıq növləri sırasında daha birinin olmasını da qeyd etmək lazımdır. Bura müxtəlif bitki toxumlarından yağların, gül və çiçəklərdən ətir cövhərlərinin alınması[2] daxildir.

Yağ növlərindən ən əhəmiyyətlisi «simsim»dən (küncüt) alınırdı. O, «sirac» (küncüt yağı) adlanırdı, bahalı və ən bol olanı idi.[3] Qaynaqlarda şəlğəm, turp, turşəng, kahı və s. kimi tərəvəz köklərindən də yağ emal edilməsi haqqında məlumatlar vardır. Həmin yağlardan işıq fənərlərində istifadə olunurdu[4]. Qaynaqlarda bitki yağlarının sabun istehsalında istifadəsi haqqında məlumatlara da rast gəlinir. Məsələn, İdrisi yazır ki, Qıftda «çoxlu şəlğəm və turp tarlaları vardı. Onların kökünü yığır, döyüb əzir və sıxıb yağını çıxardırdılar. Həmin yağdan müxtəlif növlü sabunlar istehsal edir və bütün Misirin ehtiyaclarını ödəmək üçün hər yerə göndərirdilər»[5].

Nəbati mənşəli xammala əsaslanan sənətkarlığın bir istiqaməti də gül və çiçəklərdən ətir və dərman təyinatlı cövhərlərin emalı sayılmalıdır. Məsələn, məşhur yasəmən ətirləri Dumyatda emal olunurdu və qadınlar onu çox sevirdilər[6]. Fəyyum isə qızıl gül suyu istehsalı ixracatının mərkəzi idi[7]. Burada bir çox xəstəliklərə dərman sayılan xardal yağı da istehsal olunurdu.[8] «Fustatda kəndalaş ağacından emal edilən balzam isə Misirin ixracat malları arasında mühüm yer tuturdu», - sözlərini söyləyən İstəxri onu da əlavə etmişdir ki, kəndalaş acağları yalnız Fustat ətrafında bitir və dünyada ondan başqa yer tanınmır[9]. Əski zamanlardan Abbasilər Misirinə miras qalmış sənətkarlıq sahələrindən biri də aqrar mənşəli xammaldan

---

[1] الجهشيارى. كتاب الوزراء والكتاب. القاهرة: ١٩٣٨، بلاق، 307 ص s.22

[2] ناسر خسرو. سفرنامه بانضمام روشناى نامه و سعادت نامه (فارسجه). برلىن: 1962، 258 ص s.62;

السيوطى جلال الدين. حسن المحاضرة في اخبار مصر و القاهرة. مصر: ١٣٢١، مطبعة المدينة، 645 ص c. II, s.219

[3] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص orada, s.61; c. IV, s.26

[4] ابن تغرى بردى ابو المحاسن يوسف الاتابكى. النجوم الزاهرة في ملوك مصر و القاهرة. الجزآن الثالث والرابع، القاهرة، ١٩٣٥-١٩٣٧ م orada və V, s.122

[5] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. رومية: ١٨٩٢ م، 346 ص s.48, 49

[6] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص I, s.11; IV, s.108 .ابن سعيد المغربي. كتاب المغرب في حلى المغرب

[7] D.Grohman. Arabic Papyri, vol.V, p.92

[8] السيوطى جلال الدين. حسن المحاضرة في اخبار مصر و القاهرة. مصر: ١٣٢١، مطبعة المدينة، 645 ص C. II, s.193

[9] الاصطخرى ابراهيم بن محمد. كتاب مسالك الممالك. ليدن: بريل ، ١٨٧٠ م، 567 ص s.42

şərab və müxtəlif şirə məmulatlarının istehsalı idi. Abbasilər Misirində müxtəlif mənşəli şirə və şərbətlərin istehsalı da geniş yayılmışdı. Bunlardan «bal şərabı» adlı içki çox məşhur idi[1]. Yaqub əl-Həməvi yazır ki, bu içki Misirdən başqa heç yerdə hazırlanmır[2]. Ən başlıca istehsal mərkəzi isə Dəmənhur idi[3].

Ümumiyyətlə Misirdən bəhs edən, özəlliklə isə «əl-məsalik va-l-məma-lik» janrlı elə bir orta çağ qaynağı yoxdur ki, bu ölkədə qızıl, gümüş, zəy, natrium, dəmir, mis və neft kimi dağ-mədən məhsullarının bol olmasına və onların emalı ilə bağlı fəaliyyət növlərinə önəm verməsin.. Həmin qəbildən olan fəaliyyət növləri sırasında «həddad»- dəmirçi əməyi və məhsulları xüsusi yer tuturdu. Onun da əsasında müxtəlif silahların, hər şeydən öncə isə, qılıncların hazırlanması dayanırdı. O ki, qaldı konkret halda qılınc və paralel olaraq ox-yay, nizə kimi silahların, onlarla bağlı olan alət və vasitələrin istehsalına, bu işlə həm fərdi, həm də dövlət emalatxanalarında məşğul olunurdu. Qiymətli və əlvan metallardan silah istehsalı ölkənin bütün şəhərləri üçün xarakter sayıla bilər. Hətta bəzi şəhərlər istehsal etdiyi məmulatlarla şöhrət qazanmışdı. Məsələn, Nasir Xosrov Tinnis şəhərini çox qiymətli bıçaq, qayçı və s. kimi dəmir alətləri istehsalı mərkəzi kimi vəsf etmişdir[4]. Dilas şəhəri adı ilə tanınan yüyən, - «əl-lucum əd-dilasiyyə», - istehsalı ilə məşhur idi[5]. Qaynaqlar Misirdə zəngin daş-qaş, -konkret desək, zümrüd,- yataqlarının olduğunu göstərirlər. Qaynaqlar onu da qeyd edirlər ki, zümrüd dünya ticarət mərkəzlərində böyük şöhrət qazanmışdı[6]. Həm də əlavə edirlər ki, Fustatda çoxlu şüşə emalı sexləri, - məsabik, - vardı və onlar daha möhtəşəm sarayların, məscidlərin və küçələrin işıqlandırılması üçün lampalar, - məsabih, -və fanarlar, - qənadil, - istehsal edirdilər. Həmin məlumatlar şəhərdəki «şuq əl-qəndil» adlanan məxsusi bazarda satılırdı[7]. Qaynaqlarda digər şüşə məmulatlarından müxtəlif qab-qacaqlar, dibçəklər, güldanlar, bardaqlar, boşqablar, qrafinlər, yağ və ətir saxlanılan qablar və s. məişət əşyalarının adları sadalanır[8]. Dulusçuluq və gön-dəri məmulatlarının hazırlanması da geniş yayılmış sənətkarlıq sahələrindən sayılırdı və daha çox isə Nilboyu şəhərlərdə intişar etmişdi. Yuxarıda deyilənləri belə yekunlaşdırmaq olar ki, orta çağ qaynaqları sözügedən dövrdə Misirdə

---

[1] المسعودى ابو الحسن على بن الحسين. التنبيه والاشراف. ليدن: ١٨٩٣ م، بريل، 325 ص, I, s.20

[2] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. معجم البلدان. ليدن: ١٨٩١ م، بريل، 460 ص C. I, s.61

[3] ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بريل، 528 ص s.150

[4] ناسر خسرو. سفرنامه بانضمام روشناى نامه و سعادت نامه (فارسجه). برلين: 1962، 258 ص s.40

[5] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. البلدان. ليدن: ١٨٩١ م، بريل، s.237

[6] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. رومية: ١٨٩٢ م، 346 ص s.22

[7] ناسر خسرو. سفرنامه بانضمام روشناى نامه و سعادت نامه (فارسجه). برلين: 1962، 258 ص. s.174.

[8] Yenə orada.

sənətkarlığın bütün sahələrində nəzərə çarpacaq fəallıq və inkişaf olduğunu birbaşa və birmənalı şəkildə təsdiq edir.

Dördüncü fəslin "**Ticarət**" adlanan **üçüncü** bölməsində qeyd edilir ki, VIII-X əsrlərdə Misirdə həyatın müxtəlif sahələrində müşahidə olunan ənənələri ölkənin ticarət həyatı üçün də xarakterdir və bu, bir sıra amillərdən irəli gəlirdi. Bunlardan Aralıq dənizi və Qırmızı dəniz sahillərində, eləcə də Nil çayı boyunca limanların olması, quru və su yolları şəbəkəsinin genişliyi, təhlükəsizliyin təmini, sənətkarlıq və ticarət mərkəzi olan şəhərlərin əlverişli coğrafi mövqeyi, başqa sözlə, onların çay və dəniz sahillərində yerləşməsi, birinin digəri ilə asan əlaqə saxlamasına imkan verməsi, yaxud ayrı-ayrı məşhur şəhərlərin, - Tinnis və Dumyat kimi, - bölgələrarası ticarətdə vasitəçi rol oynaması və s. göstərmək olar. Asiya, Afrika və Avropa qitələrini birləşdirən quru və su yollarının Misirdən keçməsi də bu məsələdə az rol oynamırdı. Qaynaqlarda yazılan: «Misirin fəzilətlərindən birisi odur ki, ***o, dünyanın bir böyük dəniz limanıdır***. [Dünyanın] zənginlikləri onun sahillərinə daşınır və buradan Qulzum [limanı] vasitəsilə əl-Hərəmeynə (Məkkə və Mədinəyə-R.İ.), Ciddəyə, Omana, Hindistana, Çinə, San'aya, Ədənə, əş-Şəhrə (Hadramuta –R.İ.), Sində və Dəniz adalarına (İndoneziyaya –R.İ.); [Bütövlükdə] bir liman olan Tinnis, Dumyat və əl-Fərəma tərəflərindən Bizans ölkəsinə, Uzaq Frank torpaqlarına, Kiprə, Şam sahilləri və Suğurlara, İraq hüdudlarına; İskəndəriyyə limanı vasitəsilə Krit adalarına, Siciliyaya, [yenə də] Bizans ölkəsinə, Məğrib ölkələrinə; [başqa] bir liman [sayılacaq] Səiddən (Yuxarı Misirdən) Nubə, Bəccə və Həbəş ölkələrinə, Hicaza və Yəmənə aparılırdı»[1].

Mövcud yollar, - istər su, istərsə də quru, - şəbəkəsində Nil çayı böyük önəm daşıyırdı. Onun da əsasında əlavə infrastrukturların mövcudluğu dayanırdı. Bu sistemin sayəsində gəmilər daşıdıqları malları bəzən hətta ticarət köşklərinin qapılarına qədər çatdıra bilirdi[2]. Və yaxud, İskəndəriyyə şəhəri adını daşıyan körfəz vasitəsilə Nil çayına çıxa bilir, çay yolu ilə ölkənin daxili bazarlarına və əksinə ticarət mallarının daşınmasını təşkil edirdi.[3] Əhəmiyyətinə görə İskəndəriyyə körfəzindən heç də geri qalmayan və Tinnisi Nillə birləşdirən su yolu idi. O, Tinnis gölündən kanallar vasitəsilə Fustata və Dumyata qədər uzanırdı[4].

---

[1] Ən-Nuveyri Şihab əd-Din. Nihayət əl-irb fi funun əl-ədəb. Əl-Qahira, 1992, c.I, s.241; المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1–4' مصر' 1324 ه I, s.28

[2] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. s.41 رومية: ١٨٩٢ م، 346 ص

[3] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م، بريل، 499 s.196 ص

[4] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. s.54 ياقوت شهاب الدين الحموى الرومي البغدادى. كتاب معجم البلدان. ليبزج: ١٨٦٨ ,VIII s.463; رومية: ١٨٩٢ م، 346 ص

Daxili ticarət mallarının daşınmasında quru yolları da az əhəmiyyət daşımırdı. Bu yollar Nil çayı – Qırmızı dəniz arası coğrafiyanı ehtiva edir, oradakı şəhərləri bir-biri ilə qovuşdurur və sonucda su yolları ilə birləşirdi.

Sözügedən dövrdə Misir tam və bütöv bir ticarət şəbəkəsini xatırladırdı. Şəbəkənin düyünləmə nöqtəsi isə bazarlar və onların yerləşdiyi şəhərlər idi.

Həmin dövrlərin bazarı (ərəbcə suq, cəmdə: əsvaq) təkcə alış-veriş, yəni ticarət yeri deyildi. O həm də sənətkarlığı da özündə ehtiva edirdi. Başqa sözlə, bazar istehsalın və istehlakın bir –birinə qovuşduğu mərkəz idi. Bazarların mühafizəsi və qorunması dövlət tərəfindən həyata keçirildi, onların fəaliyyətinə nəzarət isə ***muhtəsib*** adlanan məmurun işi idi. O, alqı-satqı əməliyyatlarında əyintilərin qarşısını almaq üçün bazar satıcıları sırasından «***arif***» və ya «***nəqib***» adlanan səlahiyyətli şəxslər təyin etməli idi.[1] Bazarda qiymətlər tacirlər tərəfindən müəyyənləşdirilirdi. Dövlətin bu işə qarışmasına, - hərb və aclıq dövrləri istina olmaqla, - şəriət yol vermirdi.

Bazar və digər ticarət strukturlarının ən birinci və başlıca funksiyası daxili ticarətin ehtiyaclarını ödəmək və bununla bağlı müvafiq fəaliyyət sistemini tənzimləmək idi. Ölkənin əksər şəhərlərindən başlanan ticarət yolları gəlib Fustatda birləşirdi[2] və oraya hər cür mallar və məmulatlar gətirilirdi»[3]. Fustat şəhəri bazarları orada satılan müxtəlif növ məmulatların və eləcə də qida və gündəlik tələbat mallarının bolluğu ilə məşhur idi[4].

Fustatın Aşağı Misirdəki bu rolunu Asuan şəhəri Yuxarı Misirdə təkrarlayırdı. Fəqət bir fərqlə: Fustata satış üçün mallar gətirilirdi, Asuana isə alış üçün tacirlər gəlirdi[5].Yəni Asuan daha çox xarici ticarət bazarı idi. Bununla yanaşı, o, «Səidin [Yuxarı Misirin] ən böyük şəhəri»[6] kimi «çoxlu alqı-satqı (yerlərinə -R.İ.) və (satılacaq- R.İ.) bol nemətlərə malik idi»[7]. Başqa sözlə,

---

م، 426 ص

[1] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. s.54
ياقوت شهاب الدين الحموى الرومي البغدادى. كتاب معجم البلدان. ليبزج: ١٨٦٨, VIII, s.463; رومية: ١٨٩٢ م، 346 ص
م، 224

[2] ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بريل، 528 ص I, s.138

[3] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م، بريل، 499 s.203
ص

[4] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص C. IV, s.20, 503; I,
المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1–4' مصر' 1324 ه s.339

[5] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. البلدان. ليدن: ١٨٩١ م، بريل، 460 ص s.334

[6] ابو الفداء اسماعيل ابن على بن محمود بن محمد. صاحب المختصر في اخبار البشر، المجلد الاول، الجزء الثالث. بيروت: ١٩٥٩ s.113
م، دار بيروت، 346 ص

[7] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م، بريل، 499 s.201
ص;

daxili ticarətdə də rolu böyük idi. Təsadüfi deyildir ki, Yəqubi bu şəhəri «dağ-mədən məmulatları tacirlərinin toplandığı yer»[1] adlandırmışdı. Tarixçilər onu da qeyd edirlər ki, Asuan bazarlarında qiymətlər digər yerlərlə müqayisədə həmişə xeyli dərəcədə aşağı olmuşdur[2]. Daxili ticarət şəbəkəsinin əhəmiyyətli nöqtələrindən birisi də «Mina'ə Rəşid - Rəşid limanı» idi. Əl-Məhəllə(t) əl-kəbirə(t) şəhəri daxili bazar üçün aqrar məhsullar və sənətkarlıq məmulatları istehsalı mərkəzi sayılırdı. Əl-Məhələ əl-Kəbirənin kətanı və zeytun yağı o qədər şöhrət qazanmışdı ki, təkcə buna görə onu İraqın Vasit şəhərinə bənzədirdilər.[3] Həmin mənzərə Abbasilər Misirinin bütün şəhərləri üçün bu və ya digər səviyyədə xarakter idi. Qaynaqlarda deyilir: «hər şəhərdə və hər kənddə azı bir bazar vardı»[4].

İpək və kətan məmulatları isə Əşmuneyn, Əxmim, Əhnas və Busir bazarlarına şöhrət gətirirdi[5]. Dumyat, Fəyyum və Tinnis şəhərləri isə bazarları və dükanlarının çoxluğu ilə fərqlənirdi. Onlar toxuculuq məmulatları ticarətinin başlıca mərkəzi idi[6]. İskəndəriyyə şəhəri hər zaman olduğu kimi Abbasilər dövründə də ən böyük ticarət mərkəzlərindən biri sayılırdı. Çox sayda və izdihamlı bazarları vardı. Təkcə baqqal dükanlarının sayı on iki mini aşırdı[7].

Dünya ticarəti ilə üzvi bağlılığı olan Misir şəhərləri və ölkədən keçən yollar haqqında məlumatlar yetərincədir. Elə bir orta çağ ərəb coğrafı və səyyahı tapılmaz ki, bu sahədə bildiklərini, eşitdikləri və gördüklərini qələmə almamış olsun. Onların arasında İbn Xordadbeh (IX əsr) və onun «Kitab əl-məmalik va-l-məsalik - Ölkələr və yollar haqqında kitab» adlı əsəri önəmli yer tutur. İbn Xordadbehin məlumatlarından aydın olur ki, Avropa, Asiya və eləcə də Afrika ölkələrinin iri ticarət mərkəzlərini birləşdirən karvan və dəniz yolları Misirdən keçirdi; dünya ticarət yollarında Misirin əl-Fərama, əl-Qulzum və Eyzab şəhərlərinin önəmli yeri vardı[8]. Qeyd edək ki, bu fikir məsələdən bəhs edən bütün qaynaqlardakı məlumatların da ana xəttidir. Əl-Fərama, İbn Xordadbehə görə, Fələstindən gələn dəniz və

---

المقريزى تقى الدين. المواعظ و الاعتبار فى ذكر الخطط و الاثار ج 1-4' مصر' 1324 ه I, s.196

[1] اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. البلدان. ليدن: ١٨٩١ م، بريل، s.334

[2] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م ، بريل، I, s.196

[3] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م ، بريل، s.196

[4], المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م ، s.225, 226 بريل،

[5] Yenə orada.

[6] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص C. IV, s.81; ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بريل، 528 ص s.89

[7] ابن دقماق ابراهيم بن محمد. الانتصار لواسطة عقد الامهار. القاهرة: ١٨٩٣، دارالهلال، 318 ص C. IV, s.135

[8] Ибн Хордадбех. Книга путей и стран, с.124

karvan ticarət yolları üzərində yerləşən Misir şəhərlərinin birincisidir[1].

Bütün qaynaqlarda əl-Fəramadan əl-Qulzuma gedən yola da xüsusi diqqət verilmişdir. Əl-Qulzum şəhəri isə öz növbəsində Uzaq Doğu ölkələrinə uzanan dəniz ticarət yolları üzərində mühüm bir mərkəz kimi xarakterizə olunur. Bu şəhər, Yaqut əl-Həməviyə görə, Qırmızı dəniz tərəfdən Misirin dəniz qapıları rolunu oynayırdı[2].

Əl-Qulzumdan bəhs edən müəlliflərdən İbn əl-Fəqih dünyanın müxtəlif ölkələrinin Məşriqdən Məğribə və yaxud əksinə hərəkət edən tacirlərinin bu şəhərdən Çinə getdiklərini, müxtəlif mallar alaraq yenidən əl-Qulzuma qayıtdıqlarını və buradan da yenidən vətənlərinə, ya da digər ölkələrə üz tutduqlarını yazır[3]. İbn Hövqəlin məlumatlarından bəlli olur ki, əl-Qulzumdan keçən quru və su yolları Misiri Xilafətin tərkibinə daxil olan digər ölkələrlə bir sırada Asiyanın Sind, Çin, Tibet və s.[4], Afrikanın isə Sudan, Qana, Nubə və s.[5] kimi ölkələri ilə birləşdirirdi.

Ölkənin üçüncü liman şəhəri Eyzabın da dünya ticarət yollarının kəsişməsində bir məkan kimi əhəmiyyəti haqqında qaynaqların məlumatları yetərincədir. Nasir Xosrov yazır: «Həbəş, Zənzibar və Yəmən ölkələrindən [ticarət] gəmiləri Eyzaba gəlir, orada mallarını dəvələrə yükləyərək səhra yolu ilə Asuana gətirirdilər. Asuandan isə gəmilərlə Nil vasitəsilə [Aşağı] Misirə aparırdılar»[6]. Əl-Müqəddəsi Eyzabla Qulzum arasındakı yolun müfəssəl təsvirini qələmə almışdır[7]. Misirin beynəlxalq ticarət yolları üzərində tutduğu coğrafi-strateji mövqe bir tərəfdən onun tranzit ticarətinin ideal mərkəzlərindən biri kimi əhəmiyyətini qoruyub saxlamasına imkan verirdisə, o biri tərəfdən dəyişən tarixi şərtlərin gedişində ölkənin özünün dünya ticarətinin fəal subyektlərindən birinə çevrilməsinə xidmət edirdi.

Misir İraq, Şam, Hicaz və Yəmən kimi ölkələrlə fəal ticarət əlaqələri saxlayırdı. Qaynaqlarda Misirin ticarət əlaqələri saxladığı ölkələr içərisində Azərbaycanın da adı çəkilir. Bu barədə İbn Hövqəl yazır ki, Azərbaycan bazarlarında misirli tacirlərə də rast gəlinirdi[8].

Misirin Afrikadan olan öz güney qonşuları ilə ticarət əlaqələrinə gəlincə, demək lazımdır ki, bu baxımdan ən öndə Nubə ölkəsi dururdu. Məsudi

---

[1] Yenə orada, s.87

[2] ياقوت شهاب الدين الحموى الرومي البغدادى. كتاب معجم البلدان. ليبزج: ١٨٦٨ م، IV s.130

[3] ابن الفقيه الهمداني. كتاب البلدان. ليدن: ١٨٨٥ م، بریل، 398 صs.270

[4] ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بریل، 528 ص s.162

[5] Yenə orada.

[6] Насир-и Хусрау. Сафарнаме, перевод и примечания Е.А.Бертельса. Москва,-Ленинград, 1933, с.144

[7] المقدسي شمس الدين ابو عبد الله محمد بن ابى بكر كتاب احسن التقاسيم في معرفة الاقاليم. ليدن: ١٨٧٧ م ، بریل، s.17

[8] ابن حوقل ابو القاسم. كتاب المسالك و الممالك. ليدن: ١٨٧٤ م، بریل، 528 ص s.132

yazır: «Nubə ticarəti və karvanları ilə Asuana bağlı idi»[1].Asuan tacirləri Nubəyə zinət əşyaları, darı və mərcan aparırdılar[2]. Yüklərin daşınması Nil çayı vasitəsilə idi. Digər bir su yolu da Qulzumdan başlayırdı və Doğu sahillərindəki Həbəşistan şəhərlərinə uzanırdı. İdrisinin məlumatlarına görə müxtəlif mallarla yüklənmiş gəmilər həmin şəhərlərə gəlirdilər[3]. Geri qayıdanda isə Misirə gümüş aparırdılar. Lakin Həbəşistandan Misirə ixrac olan ən mühüm ticarət malı müxtəlif dəri növləri idi. Qəlqəşəndi yazır ki, iki ölkə arasındakı ticarət əlaqələri o qədər artmışdı ki, onlar alış-verişdə ərəb pul vahidlərindən istifadə edirdilər[4].

Misirin xarici ticarətində bərbərlər ölkəsi (indiki Somali- müəl.) şəhərlərinin də müəyyən yeri vardı və onların da ən mühümü Maqadişo şəhəri sayılırdı. Misirdən bu ölkəyə daha çox müxtəlif çeşidli parçalar və paltarlar gətirilirdi. Misirin intensiv ticarət əlaqələri saxladığı ölkələr sırasında Məğribin öz yeri və rolu vardı. Misirin xam kətan, məşhur kətan parçaları və paltarlarının Məğrib ölkələrinə ixracı aramsız davam edirdi[5].

Misirin Avropa dövlətləri, o cümlədən Bizansla ticarət əlaqələrinə gəlincə, deməliyik ki, o, nəinki özü Bizansla ticarətdə əlverişli mövqeyə malik idi, həm də onlar üçün beynəlxalq ticarət yollarına və tranzit ticarəti məkanına açılan geniş qapı idi.[6] Odur ki, tərəflər Puatye döyüşündən (732-ci il) sonra pozulmuş keçmiş əlaqələri bərpa etməyə maraqlı oldular və VIII əsrin əvvəllərindən başlayan bu proses sonrakı IX və X əsrlərdə də var gücü ilə davam etdi.[7]. Beləliklə Misir tacirlərinin Batı Avropa və Bizans, onların tacirlərinin isə Misir ərazisində sərbəst fəaliyyət aparması imkanları hüquqi status qazandı. Bu fakt təkcə erkən orta çağ ərəb qaynaqlarında deyil, həm də yunan tarixi abidələrində öz əksini tapmışdır. Bu haqda Eparxa kitabında da, - Konstantinopolun sənətkarlıq-ticarət korporasiyalarının fəaliyyətini tənzim edən təlimatlar və məcəllələr toplusu, - məlumatlar vardır.[8] Misirdə həm Bizans, həm də Avropa ölkələrindən gələn tacirlərin yerli həmkarları ilə apardıqları alış-veriş əməliyyatlarının icra

---

[1] المسعودى ابوالحسن على بن الحسىن. مروج الذهب ومعادن الجوهر. مصر: ١٣٠٣ هـ، دار الهلال، 397 ص, II. s.22,26

[2] ناسر خسرو. سفرنامه بانضمام روشناى نامه و سعادت نامه (فارسجه). برلىن: 1962، 258 ص. s.20

[3] الادريسي محمد بن محمد بن عبد الله الشريف. كتاب نزهة المشتاق في ذكر الامصار والاقطار والبلدان والجزر والمدائن والافاق. رومية: ١٨٩٢ م، 346 ص

[4] القلقشندى ابو العباس احمد بن على. صبح الاعشى في صناعة الانشاء. القاهرة: ١٩١٣–١٩١٩ م، بلاق، 385 ص C.V.s.331

[5] İbn Batutə. Rihlət, s.95

[6] Р.И.Исмаилов Некоторые аспекты отношений между Египтами Византией вVIII-X вв., -Qədim və Orta əsr Şərqi və Aralıq dənizi hövzəsi, - toplusu, ADU-nun nəşri, Bakı, 1989, s.62-68

[7] Yenə orada.

[8] Византийская книга Эпарха. Вступительная статья, перевод и комментарий М.Я.Сюзюмова, Москва-Наука, 1961, с.53,54

olunduğu ən güclü mərkəzlər Fustat və İsgəndəriyyə şəhərləri idi.[1]

Ərəblər Bizansa öz ənənəvi ticarət əşyaları ilə yanaşı müxtəlif ətriyyatlar və boya məmulatları da gətirirdilər. Qaynaqlar bütün IX-X əsrlər boyunca Bizansa ərəb tacirləri vasitəsilə hind mallarının daşındığı haqqında da məlumatlar verirlər.[2]

Yunanlı tacirlər də, öz növbəsində, Misirə gəlirdilər. Ölkənin paytaxtında (Fustatda – R.İ.) yunan tacirlərinə məxsus bütöv bir məhəllə vardı.[3] X əsrdə İtaliyanın Amalfi şəhərindən olan tacirlərin də Fustatda öz koloniyaları vardı.[4] Qaynaqlar Misirin Siciliya ilə də ticarət əlaqələrinin olması haqqında məlumat verirlər. Məsələn, IX əsrə aid olan papirusların birində satış üçün Misirdən Venesiyaya müxtəlif paltarlar göndərildiyi yazılmışdır[5]. Siciliyadan isə Misirə xüsusi növ zərif parçalar, gön-dəri, xam ipək və zolaqlı ipək parçalar gətirilirdi.[6]

Misir sözügedən ölkələr və şəhərlər vasitəsilə Avropanın digər ölkələri ilə də ticarət əlaqələri saxlayırdı. Məsələn, S.A.Pletnyovanın yazdığına görə həmin dövrdə bütün Xəzər xaqanlığı boyunca Ön Asiya və Misirdən gətirilmiş şüşə boyunbağılar satılırdı.[7] Bu əlaqələrin inkişafında razanilər adı ilə tanınan yəhudi tacirlərin də xidmətləri az olmamışdır[8]. İbn Xordadbehə görə, onların sayəsində ruslarla da qarşılıqlı ticarət əlaqələri qurulmuş, həm ərəb malları rus ölkəsinə aparılırdı, həm də rus tacirlər ərəb ölkələrinə[9], o cümlədən Misirə gəlirdilər[10].

Deyilənlərə əsasən belə bir qənaətə gəlmək olar ki, VIII-X əsrlərdə Misirin daxili ticarət həyatında olduğu kimi, xarici ticarət əlaqələrində də bir canlanma baş vermişdi. Onun istər Şərq, istərsə də Avropa ölkələri ilə apardığı ticarət əməliyyatları yüksələn, genişlənən və davamlı xarakter almışdı.

Dissertasiyanın "**Nəticə**" hissəsində aparılan tədqiqat işinə yekun vurulmuş, ümumiləşdirmələr aparılmış, əldə edilmiş konkret nəticələr təhlil edilmişdir.

---

1 A.R.Levis. Naval power and trade in the Mediterranean. Prinseton, 1951, p.174
2 orada, s.273
3 A.R.Levis. Naval power and trade, p.175
4 В.Р.Розен. Император Василий Болгаробойца. Извлечения из летописи Яхьи Антиохийского. Записки Императорской Академии Наук, т.44, СПб., 1883, с.34-35
5 APEL, VI, №389
6 R.И.Исмаилов. Торговые отношения Египта со странами Европы, с.34
7 С.А.Плетнева. Хазары, М., 1986, с.56
8 ابن خردادبه ابو القاسم عبد الله كتاب المسالك و الممالك. ليدن: ١٨٨٩، بريل, s.123-124; Н.М.Велиханова. О торговых путях купцов-русов и купцов-евреев ар-Разани, s.38-43
9 Yenə orada.
10 اليعقوبي احمد بن ابو يعقوب بن جعفر. معجم البلدان. ليدن: ١٨٩١ م، بريل، 460 ص C. III, 416

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:

1. X əsrin əvvəllərində Abbasilərin Misirdə möhkəmlənmək cəhdləri, Tarix və onun problemləri. B., 2004, №4, s.17-22
2. Об аграрных отношениях в Египте VIII-X вв. // AMEA Şərqşünaslıq institutunun «Elmi araşdırmalar» toplusu, VII buraxılış. B., 2004, №3-4, s.200-205
3. Abbasi-Fatimi qarşıdurması və Misirin hərbi-siyasi həyatında türklərin rolu (X əsrin 20-30-cu illərində) // Tarix və onun problemləri. B., 2005, №1, s.17-22
4. О формах земельной собственности в Египте в VIII-X вв. // Tarix və onun problemləri. B., 2005, №2, s.13-17
5. Türk-ərəb inteqrasiyasının güclənməsi və onun Abbasilər Misirində təzahürləri // Tarix və onun problemləri. B., 2005, №4, s.5-14
6. Erkən orta əsrlər Misirində sosial-iqtisadi münasibətlərin tədqiqinə dair // Tarix və onun problemləri. B., 2005, №3, s.219-225
7. VIII-X əsrlərdə Misirdə torpaq mülkiyyəti haqqında // BDU-nun Xəbərləri (humanitar elmlər seriyası). B., 2005, №2, s.125-135
8. Əl-Əmin əl-Məmun qarşıdurması və Misir // BDU-nun Xəbərləri (humanitar elmlər seriyası). B. 2006, №2, s.103-109
9. Erkən Abbasilər dövründə Misirin hərbi-idarəçilik sistemində məvalilərin yeri // AMEA Şərqşünaslıq institutunun «Elmi Araşdırmaları» toplusu, VII buraxılış. B., 2006, №3-4, s.368-373
10. Xəlifə əl-Məmun dövründə Misirinin hərbi-siyasi həyatında türklərin iştirakı (813-833-cü illər) // Tarix və onun problemləri. B., 2006, №1, s.5-11
11. Xəlifə əl-Mutəsim dövründə Misir valiləri (833-842-ci illər) // Tarix və onun problemləri. B., 2006, №2, s.20-26
12. Misir xəlifə əl-Mənsur dövründə (754-785-ci illər) // Tarix və onun problemləri. B., 2007, №2, s.18-24
13. Abbasilər Misiri Xilafətdə siyasi böhran ərəfəsi və dövründə // Tarix və onun problemləri. B., 2007, №4, s.5-11
14. Orta çağ ərəb qaynaqlarında şəhər anlamı // BDU-nun 90 illiyi münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktiki konfransının materialları. Bakı, 2009, s.384-389
15. Azərbaycan ərəbşünaslarının Xilafət tarixinə dair tədqiqatları // Prof. A.İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. B., 2009, s.178-181
16. Abbasilər Misirində şəhərlər və şəhərsalma // Tarix və onun problemləri. B., 2009, №3, s.10-16
17. Erkən orta çağ Misirində sosial-iqtisadi duruma dair // BDU-nun Xəbərləri (humanitar elmlər seriyası), 2009, №3, s.117-124

18. Fustat-Bağdad: Birgəolma və qarşıdurma. Monoqrafiya, Adiloğlu nəşriyyatı, 2009, 212 s.
19. Abbasilər Misirində şəhərin sosial təyinatı //Tarix və onun problemləri. B., 2009, №4, s.15-22
20. Место Аббасидского Египта в арабо-европейской торговле // BDU-nun 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları. B., 2009, s.90-91
21. Abbasilər xilafətinin süqutunda xəlifə amili // AMEA-nın Şərqşünaslıq institutunun «Elmi araşdırmalar» toplusu, IX buraxılış. B., 2009, s.200-208
22. VIII-X əsrlərdə Misirdə sənətkarlıq // Tarix və onun problemləri. B., 2010, №1 s.5-14
23. Abbasilər Misirində sosial durum haqqında // Tarix və onun problemləri. B., 2010, №3, s.5-12
24. Abbasilər Misirində daxili ticarət: daşımaçılıq və alqı-satqının təşkili // BDU-nun Xəbərləri (humanitar elmlər seriyası). B., 2010, №2, s.95-101
25. Место Египта в арабо-византийских отношениях // Культура народов Причерморья. Издание Таврического Национального Университета им.В.И.Вернадского. Симферополь, 2010, №177, s.199-202
26. Erken ortaçağ Mısırının ilk türk valisi // Jurnal World of Turks. München, Germany, 2010, vol. 2, №1, s.123-129
27. Halife al-Mutasım zamanında Mısırda türkler // Türkiye Sosial Araştırmalar dergisi. Ankara, 2010, №3, s.203-209
28. О торговле и городах Аббасидского Египта в связи с мировой торговлей // Культура народов Причерноморья, Изд-во Крымского Научного Центра НАН Украины и Таврического Университета им. В.И.Вернадского. Симферeполь, 2010, №193, s.61-63
29. Place and role Central Asian Turks in the History of Abbasid Egypt // Bulleten of International Institute for Central Asian Studies, vol.12, 2010, p.50-60
30. Abbasilər Misirinin türk valiləri // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası), №1. B., 2011.s.122-129
31. Об общественной деятельности тюркских наместников в Аббасидском Египте // Türk dünyası: dünəni və bu günü mövzusunda Beynəlxalq elmi konfransın materialları, 2011, s.114-118

Рафиг Исмаил оглу Исмаилов

**Политико-экономическое и социальное положение Египта в VIII-X веках**

## РЕЗЮМЕ

В настоящее время возрос интерес к изучению проблем, связанных с возникновением ислама и Халифата, а также отколовшихся от него государств. Наше обращение к истории одного из составных частей Халифата – Египта в VIII-X вв. было продиктовано этими соображениями.

Диссертация состоит из «Введения», четырех глав, «Заключения», списка использованных источников и литературы. Во «Введении» обоснованы хронологические и географические рамки, объект и предмет исследования, его цели и задачи и источниковая и научно-методологическая база, а также степень изученности темы.

В первой главе – «Египет в период возникновения, укрепления и расцвета Аббасидского халифата» исследуется процесс распада Омейядского халифата, когда все недовольные силы – арабы, персы, тюрки и другие объединились вокруг идеи смены власти и прихода к управлению государством Аббасидов. В главе также проанализированы причины усиления роли тюрков в государственной, социально-экономической и политической жизни Халифата. Особое внимание было уделено рассмотрению роли и места тюркского фактора в истории Египта, когда в результате центробежных тенденций в Халифате окраины обособились, создав под контролем тюркских правителей государство Тулунидов (868-969) и Ихшидидов (935-969).

Во второй главе - «Египет в период политического упадка и падения Аббасидского халифата» исследуются причины упадка Халифата, а также внутренняя и внешняя политика государства Тулунидов и Ихшидидов.

В третьей главе – «Аграрные отношения» рассмотрены общие и особые черты аграрных отношений в регионе, формы земельной собственности, организация хозяйственной деятельности в аграрной сфере и механизм контроля над арендой, система налогов, роль и место общины в хозяйственной жизни страны.

IV четвертая – «Города, ремесла и торговля» посвящена анализу характерных черт египетских городов, их роль в жизни государства, особенно в развитии внутренней и внешней торговли в стране.

В «Заключении» были сделаны обобщения, высказаны определенные мысли и соображения.

**Rafiq Ismail oglu Ismayilov**

## Politico-economic and social situation of Egypt in VIII-X centuries

**SUMMARY**

Nowadays, interest increased in the study of emergence of Islam and the unified Arab-Muslim state - the Caliphate and its breakaway Muslim states in comparative-historical dimension of problems.

The thesis consists of "Introduction", four chapters, "Conclusion" and the list of primary sources and secondary literature.

In the introduction the chronological and geographical framework, object and subject, goals and objectives of the study were substantiated; moreover, there were indicated sources and the scientific and methodological basis, as well as the background of the studied issues.

The first chapter of the thesis - "Egypt during the formation, strengthening and flourishing of the Abbasid Caliphate," explores the process of the collapse of the Umayyad Caliphate, when all the disaffected forces - the Arabs, the Persians, the Turks, and others came together around the idea of regime change and the advent of the Abbasid state management. The chapter also analyzes the reasons to strengthen the role of the Turks in the government, their participation in the socio-economic and political life of the Caliphate. Particular attention was paid to the role and place of the Turkic factor in the history of Egypt, when, as a result of centrifugal tendencies, the provinces of the Caliphate separated, creating an independent states under the control of the Turkic rulers, such as Tulunids (868-969) and Ikhshidids (935-969).

The second chapter - "Egypt during the political decline and fall of the Abbasid Caliphate" is devoted to the analysis of the causes of the decline of the Caliphate. It also investigated the internal and external policies of the Tulunids and Ikhshidids.

The third chapter - "Agrarian relations" deals with the general and special features of agrarian relations in the region, forms of land tenure, the organization of economic activities in the agricultural sector and the control mechanism of rent, tax system, the role and place of the community in the economic life of the country. The fourth chapter - "The cities, crafts and trade" is dedicated to the analysis of the characteristics of Egyptian cities as socio-economic category, their role in serving of the political and economic needs of the state, as well as it investigates the role of the crafts in the functional destination of the cities. This chapter particularly focuses on the reasons for the growth and development of domestic and foreign trade in the country.

The "Conclusion" is dedicated to generalization of the results of research and it expresses certain thoughts and ideas of the author.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
AMEA TIKM

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**РАФИГ ИСМАИЛ оглу ИСМАИЛОВ**

# ПОЛИТИКО-ЭКОНОМИЧЕСКОЕ И СОЦИАЛЬНОЕ ПОЛОЖЕНИЕ ЕГИПТА в VIII-X ВЕКАХ

**Специальность: 5502.01-Всеобщая история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора наук по истории**

**БАКУ-2016**